4 may 2018-ci il
№16 (8782)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Heydər Əliyev və Azərbaycan ali iqtisad təhsili** ⇨səh.2

**Elmi nəşrlərdə tarixi rekord** ⇨səh.3

**Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılıb** ⇨səh.4

**Ümumtəhsil məktəblərində uşaq və gənclərlə aparılan ideoloji işin əsas istiqamətləri** ⇨səh.5

# Biliklərdən bacarıqlara

## Gənclərin peşə təhsilinə marağı artır



Qloballaşan dünyanın gətirdiyi yeni reallıqlardan biri və bəlkə də ən başlıcası əmək bazarının tələblərinə cavab verən yeni iş yerləri və onların hazırlıqlı, yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmasıdır. Həyat göstərir ki, sürətlə dəyişən əmək münasibətləri sistemində duruş gətirə biləcək mütəxəssis hazırlığında ali təhsillə yanaşı, peşə təhsilinin də üzərinə mühüm missiya düşür. Bu cür situasiya isə kadr hazırlığında peşə təhsilinin rolu və əhəmiyyətini artırmaqdadır. Xidmət, istehsal və sənaye iş yerlərinin keyfiyyətli mütəxəssislərlə təmin olunmasına necə nail olmaq olar? Peşə təhsili bu sahədə nə kimi rol oynaya bilər? Bütün bu suallara aprelin 30-da "Hyatt Regency Baku" otelində "Peşəyönümü işinin təşkili: peşə təhsilinin təbliği" mövzusunda keçirilən konfransda cavab tapmaq olardı.

Təhsil Nazirliyi, Avropa İttifaqı və "Hyatt Regency Baku" otelinin birgə təşkilatçılığı, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planına uyğun olaraq keçirilən konfransda Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev "Azərbaycanda peşə təhsilində islahatlar: biliklərdən bacarıqlara" mövzusunda təqdimat edib.

⇨Ardı səh.3

## Professor Nərgiz Paşayeva Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru Riçard Ovendenlə görüş keçirib

Aprelin 23-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın həqiqi üzvü, professor Nərgiz Paşayeva dünyanın ən qədim və zəngin kitab məbədlərindən sayılan Oksford Universitetinin Bodleyn Kitabxanasının **(https://www.bodleian.ox.ac.uk)** direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun antik kitab və nadir əşyaların qorunması Cəmiyyətinin üzvü Riçard Ovenden və Bodleyn kitabxanasının İnkişaf departamentinin rəhbəri Eleyn Gallagher ilə işgüzar görüş keçirib.

Bodleyn Kitabxanasının rəhbəri Riçard Ovenden **(https://www.bodleian.ox.ac.uk/about/management/biographies/richard-ovenden)** 2015-ci ilin yazında Amerika Filosoflar Cəmiyyətinin illik yığıncağında bu quruma üzv seçilmiş 27 görkəmli elm, təhsil, mədəniyyət və ictimai xadimlərindən biridir. Corc Vaşinqton, Tomas Cefferson, XX əsrdə isə Albert Eynşteyn və Robert Frost kimi tanınmış şəxsiyyətlər bu Cəmiyyətin üzvləri olublar. Xatırladaq ki, Amerika Filosoflar Cəmiyyəti 1743-cü ildə Benjamin Franklin tərəfindən "faydalı məlumatları təbliğ etmək" məqsədilə yaradılıb və ABŞ-da ən qədim elmi cəmiyyətlərdəndir.

Riçard Ovenden Darem Universiteti, Lordlar Palatası, Şotlandiyanın Milli kitabxanası, Edinburq Universitetinin Kitabxanalarında müxtəlif vəzifələrdə çalışmışdır. O, 2003-cü ildən Oksford Universitetinin Bodleyn kitabxanasında fəaliyyətə başlayıb. 2011-2014-cü illərdə direktor müavini, 2014-cü ildən isə Bodleyn kitabxanasının rəhbəri vəzifəsini tutur.

Qeyd edək ki, Oksfordda yerləşən və dünyanın ən böyük kitab məbədlərindən olan məşhur Bodleyn Kitabxanası beş böyük binada yerləşir və onun bir çox müxtəlif şöbələri var. Bodleyn kitabxanası sahəsinə və ölçülərinə görə İngilis Kitab Depozitariyasından sonra ikincidir. Vatikan kitabxanası ilə yanaşı, Oksford Universitetinin bu kitabxanası Avropanın ən qədim kitabxanasıdır. Maraqlıdır ki, Oksfordun məşhur Bodleyn kitabxanasının əsası Tomas Bodli tərəfindən deyil, XIV əsrdə yepiskop Tomas Kobhem tərəfindən qoyulmuşdur. 1327-ci ildə Vuster yepiskopu Tomas Kobhem Oksford Universitetinin Müqəddəs Məryəm kilsəsində kitabxana yaratmışdır. Buradakı ilk kitab kolleksiyası zəngin deyildir, lakin o zaman kitablar çox qiymətli olduğundan, tələbələr onları özləri ilə aparmağa çalışırdılar. Kobhem o dövr üçün adi hesab olunan bir təcrübəni tətbiq etməyi, yəni kitabların rəflərə zəncirlənməsini təklif etdi. XV əsrin ortalarında Kral V Henrinin qardaşı Gloster hersoqu Hamfri kitabxanaya təxminən 300-ə yaxın qədim yazı və əlyazma hədiyyə etdi. Bundan sonra aydın oldu ki, kilsənin artıq bütün kitab kolleksiyalarını yerləşdirməyə imkanı çatmır və bu fondu yerləşdirmək üçün 1488-ci ildə yeni bir bina ayrıldı. Bu günə qədər bura hersoq Hamfri kitabxanası adlandırılır.

⇨Ardı səh.4

## İşıqlı gələcək vəd edən şagird

### Təhsil naziri nümunəvi davranışına görə Tovuz məktəblisini mükafatlandırdı

Yol üstəyik. Tovuza gedirik. Orda, rayon mərkəzindən cəmi 22 kilometr uzaqlıqda bir kənd var, Əyyublu kəndi. Tovuzun qədim kəndlərindəndir. Həm qədim, həm də böyük. Deyilənə görə, ərazisinə və əhalisinin sayına görə ölkəmizin ən böyük ikinci kəndidir. Ziyalıları ilə tanınan, oxumuş insanları ilə öyünən kənd bu günlərdə sadəcə alim, ziyalı yox, sözün əsl mənasında, insan, vətəndaş yetişdirdiyini təsdiq elədi. Hələ yetişməkdə olan bir nəslin nümayəndəsi, bir məktəbli insanlığa dair göstərdiyi nümunəvi davranışı ilə ölkədə böyük rezonans yaratdı. Söhbətin İdrisdən getdiyini artıq hər kəs anladı. Qarşısına çıxan pul qabını içində nə qədər pul olduğuna belə baxmadan sahibinə qaytararaq ona verilən pul mükafatından imtina edən Tovuz məktəblisi yaşıdlarına örnək oldu.

Pulu deyil, insanlığı seçən şagirdi təhsil naziri Ceyhun Bayramov örnək davranışına görə Təhsil Nazirliyinin "Təşəkkürnamə"si ilə təltif etdi. Sahib İsgəndərov adına Əyyublu kənd tam orta məktəbinin 8-ci sinif şagirdi İdris Abbasova Təhsil Nazirliyinin hədiyyələrini və "Təşəkkürnamə"sini çatdırmaq da qurumun İctimaiyyətlə əlaqələr şöbəsinin mütəxəssisi Jalə Məmmədliyə tapşırıldı. İdrisi biz də tanımaq istədik. Odur ki, üzü Tovuza sarı yola çıxdıq.

**Budəfəki məktəb zəngi İdris üçün səsləndi**

Məktəbdə qələbəlikdir. Xeyli şagird və müəllim məktəbin həyətinə toplaşıb. Bir azdan İdris təhsil nazirinin ona göndərdiyi hədiyyələri məktəb kollektivinin - müəllimlərinin və şagird yoldaşlarının iştirakı ilə qəbul edəcək. Hazırlıqlar tamamlanıb. Məktəbin direktoru da yerəgöyə sığmır. Təşkilati işlərdən görünür ki, bütün kollektiv bu görüşə çox həvəslə hazırlaşıb. Dərsdə, sinif otaqlarında olan hər kəsi məktəbin həyətinə gəlməyə çağıran zəng səsi eşidilir. Hamı bilir ki, bu zəng İdris üçün səslənir.

Budur, artıq burdadırlar, məktəbin həyətində. İdrisin sinif yoldaşları, müəllimləri, hətta valideynləri belə ondan daha həyəcanlı görünürlər. Maraq dolu baxışlar məktəbin qonaqlarına dikilib.

Sözə rayon təhsil şöbəsinin müdiri Validə Hüseynova başladı. Rayonda təhsilin səviyyəsindən danışaraq, ötən ilin uğurlarına nəzər saldı. Ötən il olduğu kimi, bu il də 600-700 bal toplayan məktəblilərin olacağına əminliyini vurğuladı. Ancaq təhsil sadəcə məktəblərin akademik göstəriciləri ilə ölçülə bilməz. Bir məktəbin, ya da bir rayonun təhsilinin ən böyük uğuru onun yetişdirdiyi insanların sayı ilə ölçülməlidir.

⇨Ardı səh.6



## 22 ölkə arasında səkkizinci

### Azərbaycanlı məktəblilərin növbəti olimpiada uğuru

Səh.8

## Ötən ay Təhsil Nazirliyinə 10185 müraciət daxil olub

Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə ("Qaynar xətt" xidməti, telefon: 146) daxil olan zənglərlə vəVətəndaşların Qəbulu Mərkəzində 2018-ci ilin aprel ayında vətəndaşlara göstərilən xidmətlərlə bağlı statistika açıqlanıb.

Qeyd olunan müddət ərzində Vətəndaşlarla iş bölməsinə ümumilikdə 10185 müraciət daxil olub.

Statistikaya əsasən, Telefon Məlumat Mərkəzində 7357 zəng qəbul edilib.

Vətəndaşların Qəbulu Mərkəzində isə bu dövrdə 2828 vətəndaşa xidmət göstərilib.

Telefon Məlumat Mərkəzinə və Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin (əsasən sorğu xarakterli olub) əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. Vətəndaşların Qəbulu Mərkəzində 1173 sənəd (703 məktub, 456 ərizə, 14 digər sənəd) qəbul olunub və qeydiyyata alınıb.

Daxil olan müraciətlər daha çox ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), müəllimlərin işə qəbulu, diaqnostik qiymətləndirmə və ümumtəhsil məktəblərinin 1-ci siniflərinə qəbul ilə bağlı məsələləri əhatə edib.

Qeyd edək ki, Telefon Məlumat Mərkəzinə ötən ay ərzində ən çox həftənin bazar ertəsi (1812 müraciət), cümə axşamı (1525 müraciət) və çərşənbə axşamı (1523 müraciət) günləri, əsasən, saat 10:00-dan 12:00-dək və 14:00-dan 16:00-dək müraciət olunub.

Vətəndaşların Qəbulu Mərkəzinə isə ən çox həftənin bazar ertəsi (841 müraciət) və çərşənbə axşamı (596 müraciət) günləri, əsasən, saat 10:00-dan 13:00-dək və 14:00-dan 16:00-dək müraciət edilib.

## Eksternat imtahanlarına sənəd qəbulu başa çatıb

Eksternat imtahanlarına sənəd qəbulu və qeydiyyat başa çatıb. Tam orta təhsil səviyyəsi (XI sinif) üzrə eksternat imtahanlarında iştirak etmək üçün 378 ərizə qeydiyyata alınıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 4 aprel 2018-ci il tarixli əmrinə əsasən, eksternat imtahanları 15-16 may tarixlərində paytaxtdakı 258 nömrəli tam orta məktəbdə təşkil olunacaq. Ərizələri BŞTİ tərəfindən qəbul edilmiş ekstemlər 7, 8, 10, 11 may tarixlərində saat 10:00-dan 18:00-dək 258 nömrəli tam orta məktəbdən (şəxsiyyət vəsiqələrini təqdim etməklə) imtahana buraxılış vərəqələrini əldə edə bilərlər.

Eksternat imtahanlarında uğur qazanmış şəxslər tam orta təhsil haqqında sənəd (attestat) almaq üçün Dövlət İmtahan Mərkəzi tərəfindən tam orta təhsil səviyyəsi üzrə keçirilən buraxılış imtahanlarında iştirak etmək hüququna sahib olacaqlar.

Qeyd edək ki, sərbəst (eksternat) təhsilalma formasının tətbiqi müxtəlif səbəblərdən tam orta təhsil səviyyəsini başa vura bilməyən şəxslərə həmin səviyyə üzrə buraxılış imtahanı verib müvafiq təhsil sənədi almaq üçün şərait yaratmaq məqsədi daşıyır.

# Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

| | |
|---|---|
| Novruz Məmmədov | - Azərbaycan Respublikasının Baş naziri |

**Komissiyanın üzvləri**

| | |
|---|---|
| Əli Əhmədov | - Azərbaycan Respublikası Baş nazirinin müavini |
| Akif Əlizadə | - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |
| Əbülfəs Qarayev | - Azərbaycan Respublikasının mədəniyyət naziri |
| Oqtay Şirəliyev | - Azərbaycan Respublikasının səhiyyə naziri |
| Ceyhun Bayramov | - Azərbaycan Respublikasının təhsil naziri |
| Samir Nuriyev | - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri |
| İbrahim Quliyev | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| İsa Həbibbəyli | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| İsmayıl Hacıyev | - Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri |
| Əhliman Əmiraslanov | - Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb elmləri bölməsinin akademik-katibi |
| Ömər Eldarov | - Azərbaycan Rəssamlıq Akademiyasının rektoru |
| Abel Məhərrəmov | - Bakı Dövlət Universitetinin rektoru |
| Siyavuş Kərimi | - Azərbaycan Milli Konservatoriyasının rektoru |
| Çingiz Abdullayev | - Azərbaycan Yazıçılar Birliyinin katibi |
| Cəlal Abbasov | - Azərbaycan Bəstəkarlar İttifaqının katibi |
| Altay Hacıyev | - xalq rəssamı |
| Arif Məlikov | - xalq artisti |
| Şəfiqə Məmmədova | - Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri |
| Elbay Qasımzadə | - Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri |
| Mövlud Süleymanlı | - xalq yazıçısı |
| Məhərrəm Qasımlı | - Azərbaycan Aşıqlar Birliyinin sədri. |

**2.** "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 mart tarixli 854 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 475) 1-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 aprel 2018-ci il*

# Mir Cəlal Paşayevin 110 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransı keçirilib




Mayın 1-də Bakı Dövlət Universitetində görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 110 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransı keçirilib.

Ölkənin tanınmış dövlət və elm xadimləri, universitetin müəllim və tələbə heyətinin iştirak etdiyi plenar iclası açıq elan edən BDU-nun rektoru Abel Məhərrəmov böyük ziyalı Mir Cəlal Paşayevin 110 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransın əhəmiyyətindən bəhs edib. Böyük ziyalı Mir Cəlal Paşayevin zəngin irsindən, nəcib insani keyfiyyətlərindən danışan rektor universitetin yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr verdiyini qeyd edib.

Təhsil naziri Ceyhun Bayramov Mir Cəlal Paşayevin ölkəmizdə ədəbiyyatın, elmin, xüsusilə təhsilin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Nazir ölkəmizin hər yerində ədibin 110 illiyinə həsr olunmuş yubiley mərasimlərinin təntənə ilə qeyd edilməsini böyük sənətkarın yaradıcılığına, onun ədəbi irsinə göstərilən diqqət və qayğının təzahürü kimi dəyərləndirib.

Sonra görkəmli yazıçının həyat və yaradıcılığına həsr edilmiş "Üç zirvənin fatehi" adlı film nümayiş olunub.

Universitetin filologiya fakültəsinin dekanı Elçin Məmmədov "Mir Cəlal Paşayevin həyatı və yaradıcılığı" adlı məruzə ilə çıxış edib. Daha sonra millət vəkili Nizami Cəfərov, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva görkəmli yazıçının alim və müəllim kimi şəxsi keyfiyyətlərindən danışıblar.

Sonda alimin ailəsi adından oğlu, "ADA" Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək atası ilə bağlı xatirələrini bölüşüb, konfransın təşkilatçılarına təşəkkürünü bildirib.

Qeyd edək ki, elmi konfransın materialları toplusunda Mir Cəlal Paşayevlə bağlı respublikanın müxtəlif elm və ali təhsil müəssisələrindən təqdim olunmuş 50-yə yaxın məqalə çap edilib.

## İbtidai sinif müəllimləri üçün seminar

**Sifai SƏFƏROVA**

Mayın 3-də Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda "Refleksiv müəllim" layihəsi çərçivəsində ibtidai sinif müəllimlərinin seminarı keçirilib. Seminarda TİPİİ-nin direktor müavini Nəzakət Mehtiyeva, institutun beynəlxalq layihələr şöbəsinin baş mütəxəssisi Elçin Sərdarov iştirak ediblər.

Seminarda paytaxtdakı 102 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Dilşad Şeyxzadənin "Kərpickəsən kişinin hekayəti" mövzusunun icmal şəklində təqdimatı nümayiş olunub. Mövzu ətrafında fikir, yeni yanaşmalar, müzakirələr aparılıb. Müzakirələrdə müəllimlər fəallıq göstərərək iş təcrübələrini genişləndirmək imkanı əldə ediblər.

Sonda 263, 299 nömrəli tam orta məktəblərin ibtidai sinif müəllimləri İlahə Məmmədova, Lalə Həsənova "Refleksiv müəllim-2017" seminarlarında fəal iştirak etdiklərinə görə diploma təltif olunublar.

Qeyd edək ki, seminar beynəlxalq əlillərin hüquqlarının müdafiəsi günü ərəfəsində keçirildiyi üçün Əlil qadınlar təşkilatının sədri Məxluqə Rəhimova seminarda çıxış edərək əlillərə göstərilən diqqət və qayğıdan söz açıb.

Sonra Elçin Sərdarovun "Nurlu an" videoçarxı nümayiş olunub.

## SABAH qrupunun tələbələri ilə görüş

SABAH qruplarının 4-cü kurs tələbələri və Vergilər Nazirliyinin əməkdaşları arasında görüş keçirilib.

Görüşün məqsədi Vergilər Nazirliyi və onun tabeli struktur bölmələrində işə qəbul qaydaları və prosedurları haqda tələbələrə məlumat verməkdir.

Görüş Təhsil və Vergilər nazirlikləri arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində keçirilib.

Memorandum vergilər sahəsində gənc və peşəkar kadrların yetişdirilməsini, ali təhsil müəssisələri ilə birgə vergi və vergi tutma sahələri üzrə vahid tədris proqramlarının tərtibini, təhsilalan və təhsilverənlərin peşəkar inkişafına müxtəlif vasitələrlə (təlim, müsabiqə, seminar və s.) mütəmadi dəstək göstərilməsini, Vergilər Nazirliyi əməkdaşlarının ali təhsil müəssisələrində akademik fəaliyyətə cəlb olunması və digər nazirliklərarası əməkdaşlıq məsələlərini əhatə edir.

# Heydər Əliyev və Azərbaycan ali iqtisad təhsili

## UNEC-də ali təhsilə dair konfrans




**Samirə KƏRİMOVA**

"Ulu öndər ali təhsil ocağının professor-müəllim heyəti qarşısında Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsi, xalqın rifahının yaxşılaşdırılması üçün dünya təcrübəsinin öyrənilməsi, nəzəriyyələrin milli iqtisadiyyata uyğunlaşdırılmasını başlıca vəzifələrdən biri kimi müəyyənləşdirmişdi. Onun professor-müəllim heyətinə verdiyi tövsiyələrdən biri də iqtisadi siyasətin geniş kütləyə çatdırılmasında fəal iştiraklarını əsirgəməmək, gənc nəslə müasir bazar iqtisadiyyatı tələblərinə uyğun təhsil verilməsi ilə bağlı olub".

Bu fikirləri Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov mayın 3-də ali təhsil müəssisəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Heydər Əliyev və Azərbaycan ali iqtisad təhsili" mövzusunda keçirilən respublika elmi-praktik konfransında səsləndirib.

Tədbir iştirakçıları öncə ulu öndərin universitetdəki büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad edib, tələbələrin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olublar.

Konfransın vacib bir mövzuya həsr olunduğunu diqqətə çatdıran rektor Ədalət Muradov ulu öndər Heydər Əliyevin həm sovet dönəmində, həm də müstəqillik illərində iqtisadiyyatın inkişafına böyük önəm verdiyini qeyd edib. Bildirib ki, dahi şəxsiyyət UNEC-in fəaliyyətini hər zaman yüksək dəyərləndirib. Ümummilli lider 2002-ci il iyunun 13-də Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr olunan təntənəli mərasimdəki çıxışı zamanı ali təhsil müəssisəsinin fəaliyyət istiqamətini, qarşıda duran vəzifələri tam mənada ifadə edib. Əbədiyaşar liderin universitetin kollektivi qarşısında qoyduğu vəzifələrdən biri də dövlət siyasətinə uyğun müasir iqtisadi konsepsiyada əsərlərin hazırlanması idi. Ümummilli liderin UNEC qarşısında qoyduğu vəzifələri və verdiyi tövsiyələrin hər zaman ali təhsil ocağı tərəfindən diqqətdə saxlanıldığını deyən professor Ədalət Muradov görülən işlər barədə ətraflı məlumat verib.

UNEC-in Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universiteti olduğunu söyləyən rektor, məhz bu ali təhsil müəssisəsinin inkişaf strategiyasının əsasında ulu öndərin tövsiyələrinin dayandığını deyib.

Çıxışında UNEC-in Şimali Amerika və Qərbi Avropanın tanınmış universitetləri ilə bir sırada dayanmağı qarşılarına məqsəd qoyduqlarını bildirən Ə.Muradov 20 minə yaxın tələbə kontingenti olan bu ali təhsil ocağının orta müddətdə həmin rəqəmi 35 minə çatdırmaq istiqamətində gördüyü işlərdən bəhs edib. "Bu, həm də qarşımızda keyfiyyətli təhsilin təmin edilməsi vəzifəsini qoyur", - deyən rektor ali iqtisadi təhsil bazarında ədalətsiz rəqabət riski olduğunu söyləyib. Bu rəqabəti təmin etmək üçün ali təhsil müəssisələrinə tədris standartlarının hazırlanmasında müstəqillik verilməsinin qaçılmaz olduğunu bildirib.

Ə.Muradov QS reytinqinə görə, inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya universitetləri arasında sırf iqtisadyönümlü 4-cü universitet olan UNEC-in birinciliyi əldə etməyə iddialı olduğunu, eləcə də dünyanın 1000 ən yaxşı iqtisad universitetləri sırasına daxil olmağı qarşılarına məqsəd olaraq qoyduqlarını vurğulayıb: "İnanıram ki, bu vəzifələrin öhdəsindən gələcəyik və bizim ali təhsil ocağının məzunları təkcə keyfiyyətli mütəxəssis kimi yox, həm də vətənini, xalqını sevən vətəndaş kimi fəxrlənəcəklər və bu, UNEC modeli olacaq".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafındakı tarixi xidmətlərindən söz açıb. "İqtisad elminin Azərbaycanın inkişaf strategiyasında rolu" mövzusunda məruzə edən iqtisadçı-alim ali iqtisad təhsilinin keyfiyyətinin artırılmasının Azərbaycan iqtisadiyyatının inkişafında ciddi rol oynayacağını deyib. Akademik iqtisad elminin Azərbaycanın inkişaf strategiyasında əhəmiyyətindən, iqtisadçı kadrların hazırlığında yeni tədris texnologiyalarının vacibliyindən danışıb və UNEC-in bu istiqamətdə çox uğurlu addımlar atdığını bildirib.

AMEA-nın müxbir üzvü, professor Əli Nuriyev "Azərbaycan regionlarının inkişafında yeni mərhələ: nailiyyətlər və perspektivlər" mövzusunda məruzəsində regionların inkişafında yeni mərhələdən, bu sahədə əldə olunan nailiyyət və perspektivlərdən geniş söz açıb.

UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, professor Damət Bağırov "Heydər Əliyev: Azərbaycan ali iqtisad təhsilinin dünəni, bu günü və sabahı" mövzusunda məruzəsində ümummilli liderin Azərbaycanın ali iqtisad təhsilinin qarşısına qoyduğu vəzifələrdən danışıb.

Sonra konfrans işini bölmələrdə davam etdirib. Ümumilikdə 40-dan çox məruzə dinlənilib.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

# Akademik Zərifə Əliyeva adına liseyin 10 illik yubileyi qeyd olunub



Mayın 1-də Azərbaycan Dövlət Musiqili Dram Teatrında akademik Zərifə xanım Əliyevanın adını daşıyan liseyin yaranmasının 10 illiyi ilə əlaqədar yubiley tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə açan liseyin direktoru Mehriban Vəliyeva bildirib ki, işıqlı xatirəsi daim yad edilən xeyirxah insan, fədakar alim, dünya oftalmologiya elminə gətirdiyi yeniliklərlə bir çox insanın xilaskarına çevrilən akademik Zərifə Əliyevanın həyat yolu onun adını daşıyan liseyin hər bir üzvü üçün məktəbdir. Mehriban Vəliyeva deyib ki, bu günədək liseyi 1237 məzun bitirib. Onların bir çoxu 600-dən yuxarı bal toplayıb, orta statistik göstərici isə 500 baldan yüksək olub. Ötən ilin qəbul imtahanlarında liseyin iki məzunu 700 bal toplayaraq təhsil birincisi olub.

Daha sonra liseyin fəaliyyətində xidmətləri olan, hazırda təhsilin müxtəlif sahələrində rəhbər işçi kimi çalışan, eyni zamanda liseydən təqaüdə gedən müəllimlərə xatirə hədiyyələri verilib. Liseyin formalaşmasında rolu olan müəllimlər adından Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva çıxış edib.

Sonra liseyin 10 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.

Təhsil naziri Ceyhun Bayramov liseyin 10 illik fəaliyyətini yüksək dəyərləndirib, məktəbin təhsilə verdiyi töhfələrdən danışıb. Nazir əldə olunan bu nailiyyətlərdə liseyin müəllimlərinin böyük əməyi olduğunu qeyd edib, təhsil müəssisəsinin şagirdlərinin beynəlxalq və respublika olimpiadalarında yüksək yerlərə layiq görüldüklərini vurğulayıb.

Yubiley tədbirində çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov kollektivi təbrik edərək onlara uğurlar arzulayıb.

Sonra liseyin 27 müəlliminə Təhsil Nazirliyinin Fəxri fərman və təşəkkürnamələri təqdim edilib.

Tədbirdə, həmçinin liseyin teatr dərnəyinin rəhbəri, aktyor Bəhruz Vaqifoğlunun şagirdlərlə birgə hazırladığı ədəbi-bədii kompozisiya təqdim olunub. Kompozisiyada liseyin sosial həyatı, dünya elmi, idman, vətənpərvərliklə bağlı səhnələr nümayiş olunub. Bundan əlavə, qonaqlara liseyin 10 illik fəaliyyətinə həsr olunmuş "Gələcəyə açılan qapı" adlı jurnallar paylanılıb.

Tədbir lisey məzunlarının təbrik çıxışları ilə yekunlaşıb.

# "Azərbaycanşünaslığın aktual problemləri"

## Ümummilli liderə həsr olunmuş IX Beynəlxalq elmi konfrans öz işinə başlayıb

**Ruhiyyə DAŞSALAHLI**



Bakı Slavyan Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda IX Beynəlxalq elmi konfrans öz işinə başlayıb. Tədbirdə Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva əvvəlcə konfransın məqsədi, iş prinsipi və vəzifələri barədə iştirakçılara məlumat verib.

Bildirilib ki, müstəqilliyin hələ ilk dövründə ulu öndər Heydər Əliyev gələcək uğurlu inkişafımızın ideoloji prinsiplərini dəqiq müəyyən edib. Dahi şəxsiyyət azərbaycançılıq ideologiyasını dövlət siyasətinin tərkib hissəsinə çevirməklə dövlətçiliyin milli-mənəvi dəyərlər üzərində yüksəlməsinin vacibliyini bir daha təsdiqləyib".

Rektor deyib ki, Bakı Slavyan Universitetinin yaradılması da ulu öndərin ideyası olub: "O, bu universiteti dünyaya, ilk növbədə slavyan dünyasına açılan bir qapı kimi görürdü. Bu gün universitetin qazandığı uğurlar ümummilli liderin nə qədər uzaqgörən siyasətçi olduğunu bir daha təsdiq edir. Xarici ölkələrdən gələn qonaqlarımızın bu gün Azərbaycanın dostu olaraq dəfələrlə bu konfransda iştirak etmələri onu göstərir ki, onları Azərbaycana bağlayan xətt əbədidir".

N.Əliyeva dahi şəxsiyyətin qısa müddət ərzində müstəqil Azərbaycanı stabil, inkişaf etmiş qüdrətli bir dövlətə, regionun lider ölkəsinə çevirdiyini vurğulayıb. Prezident İlham Əliyevin ümummilli liderin dövlətçilik ənənələrini daha da inkişaf etdirərək iqtisadi baxımdan güclü, siyasi-diplomatik baxımdan çevik, hərbi baxımdan qüdrətli bir Azərbaycan kimi dünyada tanınmasına nail olduğunu qeyd edib.

Sonra ümummilli lider Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş olunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək ulu öndərin Azərbaycan tarixindəki rolundan danışıb. Heydər Əliyev azərbaycançılıq ideyası ilə Azərbaycanı bütün millətlərin ümumi vətəninə, regionun ən qüdrətli dövlətinə çevirib: "Azərbaycanın gələcək çoxmədəniyyətlilik ənənəsini dövlət siyasətinə gətirdi. Bu mənada ölkədə reallaşdırılmasına səy göstərilən istənilən ideya təkcə azərbaycanlıların deyil, digər milli azlıqların da maraqlarını özündə ehtiva edir. Mübaliğəsiz və tam cəsarətlə deyə bilərik ki, məhz ulu öndər Heydər Əliyevin ölkəmizdə rəhbərliyi dövründə azərbaycançılıq ümummilli ideya səviyyəsinə yüksəldi. Ölkə vətəndaşlarını vahid ideya ətrafında birləşdirən milli ideologiya formalaşdı".

Nazir müavini xüsusi vurğulayıb ki, Heydər Əliyevin apardığı siyasət nəticəsində azərbaycançılıq ideologiyası hüquqi və demokratik dövlət kimi ölkəmizin möhkəmləndirilməsinə və inkişafına yönəldilmişdi: "Ümummilli lider azərbaycançılığı Azərbaycanı müstəqil dövlətlər sırasına çıxaracaq yol hesab edirdi. Müstəqil Azərbaycanın Prezidenti İlham Əliyev əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu ideologiyanı daha da inkişaf etdirib".

Təhsil Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərdən danışan F.Qurbanov qeyd edib ki, ali təhsil müəssisələrində "Azərbaycanşünaslığın əsasları" adlı kurs tədris olunur. Hətta bu problemlərə dair bir sıra tədris vəsaitləri də nəşr olunub. Bir sıra tədris müəssisələrində Azərbaycanşünaslıq mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlərin məqsədi bu sahədə mütəxəssis hazırlığı işinə yardımçı olmaq, elmi tədqiqatlar aparmaq, xaricdə azərbaycanşünaslığın inkişaf etdirilməsinə nail olmaq, ölkədə və ölkədən kənarda bu işlə məşğul olan qurumlarla əlaqələri genişləndirməkdir, Azərbaycan haqqında obyektiv informasiya yaymaqdır.

Sonra söz alan Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral Azərbaycanla Türkiyə arasındakı münasibətlərin inkişafında ulu öndərin əvəzedilməz xidmətindən danışıb. O, Heydər Əliyevin dünyanın ən nəhəng siyasətçilərindən olduğunu qeyd edib.

Yunanıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos, Milli Məclisin deputatları Mixail Zabelin və Aydın Mirzəzadə, Çexiyada Şərq ölkələri üzrə mütəxəssis, professor İvan Meznik, Bakı Dövlət Universitetinin professoru, Bakı Slavyan Universitetinin İctimai Etimad Şurasının koordinatoru Şahlar Əsgərov çıxış edərək beynəlxalq elmi konfransı təhsilimizin, elmimizin inkişafında, azərbaycançılığın və multikulturalizmin təbliğində mühüm addım kimi dəyərləndirib, konfransın işinə uğurlar arzulayıblar.

Konfransda Çexiya, Polşa, Ukrayna, Bolqarıstan, Belarus respublikalarının Azərbaycandakı səfirliklərinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, beynəlxalq konfransa 310 alim qatılıb. Bu alimlərin 14-ü xarici qonaqlar sırasındadır. Ukraynanın Çerniqov Milli Texnologiya Universitetinin prorektoru Vasiliy Karabanov, Çexiya Karl Universitetinin professoru xanım İvana Bozdexova, Türkiyənin Reytinq Akademiyasının rəhbəri, professor Mehmet Şahin, Qazaxıstanın Lev Qumilyov adına Avrasiya Milli Universitetinin professoru Satay Sızdikov, Polşa Təhsil Nazirliyinin nümayəndəsi, professor Pavel Frerenç və digərləri iştirak ediblər.

Konfrans öz işini bölmələr üzrə davam etdirib.

Qeyd edək ki, konfrans çərçivəsində Belarus Dövlət Pedaqoji Universiteti (BDPU) ilə BSU arasında telekörpü yaradılıb. Telekörpünü BDPU tərəfdən rektor Aleksandr Juk, BSU tərəfdən isə elmi işlər üzrə prorektor, professor Rafiq Novruzov aparıblar.

Beynəlxalq konfransın gedişində Çexiyanın Mendel Universiteti ilə BSU arasında əməkdaşlığa dair müqavilə imzalanıb. Türkiyənin Pamuqqala Universitetinin nümayəndəsi Mehmet Şahin tərəfindən "Nargin faciəsi və Nuru paşa" mövzusunda tədbir keçirilib.

Mayın 4-də beynəlxalq konfransın bağlanış mərasimi keçiriləcək.

# Elmi nəşrlərdə tarixi rekord

2017-ci ildə "Web of Science" elmi bazasında Azərbaycan üzrə 1118 elmi tədqiqat işi qeydə alınıb. Bu, son 25 ildə Azərbaycan üzrə publikasiya sayının rekord həddi deməkdir.

Ötən il Azərbaycan "Web of Science" elmi bazasında nəşr aktivliyinin son 3 il üzrə artım dinamikasına görə regionda birinci yerə çıxıb. 2017-ci ildə respublika üzrə ümumi publikasiya çəkisinin təxminən 43 faizi məhz ali təhsil müəssisələrinin payına düşüb.

2013-cü ildə AMEA-nın ümumi nəşrlərinin sayı ali təhsil müəssisələrinin ümumi nəşrlərinin sayını 2 dəfədən çox üstələyirdisə, 2017-ci ilin ötən dövründə bu sayda ciddi yaxınlaşma müşahidə olunur.

Qeyd edək ki, Təhsil Nazirliyi ilə "Thomson Reuters" şirkəti ("Clarivate Analytics") arasında 22 dekabr 2015-ci ildə əməkdaşlıq haqqında müqavilə imzalanıb, ölkəmizin elm və təhsil müəssisələrinin dünyanın aparıcı elmimetrik bazası olan "Web of Science"-ə çıxışı, yerli alim və tədqiqatçıların əzmi və zəhməti nəticəsində elmi məhsuldarlıq nəzərəçarpacaq dərəcədə artıb, elmi tədqiqat işlərinin effektivliyi xeyli yüksəlib.

# Bakı məktəbliləri beynəlxalq festivalda

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) rəqs kollektivi Türkiyə Respublikasında keçirilən Beynəlxalq 23 aprel Pendik Uşaq Festivalında iştirak edib.

Uşaqlar arasında qardaşlıq, sevgi və dostluq əlaqələrini inkişaf etdirmək məqsədi ilə keçirilən festivalda UGİM-in rəqs qrupu "Naxçıvani", "Qaval" və "Bayram" adlı Azərbaycanın milli rəqslərini ifa ediblər.

12 ölkənin qatıldığı festivalda paytaxt məktəblilərinin rəqs qrupunun rəngarəng çıxışları maraqla qarşılanıb.

Beynəlxalq festivalda məktəblilər Azərbaycan xalqının mədəniyyət və adət-ənənələrini nümayiş etdirib, tarixini və milli-mənəvi dəyərlərini öz həmyaşıdları ilə bölüşüblər.

Festival zamanı rəqs qrupunun üzvləri Pendik bələdiyyəsinin sədri, bələdiyyə nümayəndələri və məktəb direktorları ilə görüşlərdə olub, Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə ediblər.

Görüşlərdən sonra qarşılıqlı olaraq hədiyyələr təqdim olunub.

# Biliklərdən bacarıqlara

## Gənclərin peşə təhsilinə marağı artır



⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Təqdimatda ölkəmizdə peşə təhsili sahəsində aparılan islahatlar, həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib, peşə təhsilinin inkişafı üzrə qəbul olunmuş dövlət sənədlərində bu sahənin prioritet əhəmiyyət daşıdığı, bu sahəyə artan dövlət dəstəyi qeyd olunub. F.Mustafayev qeyd edib ki, Azərbaycanda təhsil sistemində və eləcə də onun tərkib hissəsi olaraq peşə təhsili sahəsində aparılan islahatlar artıq hamıya tanışdır. Onun sözlərinə görə, 2016-cı ildə ölkədə milli iqtisadiyyatın inkişafı üzrə strateji yol xəritələri müəyyənləşdi və onlardan biri də peşə təhsilinin inkişafına dair strateji yol xəritəsi oldu.

Peşə təhsilinə olan diqqətin ən bariz nümunəsi 2016-cı il aprelin 20-də ölkə rəhbərinin fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması oldu. Ötən 2 il ərzində bu sahədə xeyli iş görüldüyünü deyən Agentliyin direktoru qeyd edib ki, ilk növbədə, peşə təhsili sahəsində qanunvericilik bazasının yaradılması üzərində işlərə başlanıldı və ölkə tarixində ilk dəfə olaraq "Peşə təhsili haqqında" qanun Milli Məclis tərəfindən qəbul olundu. Bu, dünya təcrübəsinə əsaslanan, o cümlədən ənənəvi peşə təhsili sistemini də yaddan çıxarmayan, ölkədə peşə təhsilini inkişaf etdirməyə imkan verən çox gözəl qanundur.

### Rasionallaşdırma işlərinə başlanılacaq

F.Mustafayev qeyd edib ki, "Peşə təhsili haqqında" qanunun qüvvəyə minməsindən sonra peşə təhsil mərkəzlərinin şagirdləri də tələbə adlanacaqlar. "Bu, hesab edirəm ki, peşə təhsilinin imicinin artırılmasına böyük kömək edəcək. Peşə təhsilində çalışan insanların yaş həddi məhdudlaşmayacaq və orada 16-46 yaşında insanlar da təhsil ala biləcəklər. Bu baxımdan, burada hər bir təhsilalanın tələbə adlanması insanların bu sahəyə gəlməsində psixoloji maneələri də aradan qaldırmağa imkan verir". Bundan başqa, bütün respublika üzrə rasionallaşdırma işlərinə başlanılacaq. Bu, bir neçə peşə təhsil müəssisəsinin birləşməsi və regionlarda lazım olan yerlərdə yenilərin yaradılması istiqamətində aparılacaq tədbirlər planıdır. "Biz demək olar ki, yeni kurikulum proqramlarını əmək bazarının tələblərinə cavab verən səviyyədə hazırlayırıq. Bu, peşə təhsilinin müasir tələblərə cavab verməsi üçün çox vacib şərtdir. Bütün dərsliklər Asiya və Avropanın bir sıra ölkələrinin qabaqcıl təcrübəsi nəzərə alınmaqla hazırlanıb". Peşə təhsilinin məzmununun inkişafı üçün də işlər görülür. Burada ümumi kurikulum əsaslı tədris proqramları hazırlanır, təxminən 60 modulun hazırlanması üzərində iş gedir. Bu da peşə təhsilinin məzmununun demək olar ki, kökündən müasir əsaslar üzərində qurulmasıdır.

### Uğurun yolu həm də peşə təhsilindən keçir

Agentlik direktoru bildirib ki, ölkənin iqtisadi qüdrətini qaldırmaq, ölkəyə valyuta idxalını artırmaq üçün peşə təhsilinin inkişafı danılmazdır. Bugünkü tədbirin də məqsədlərindən biri valideynlərə göstərməkdir ki, uğurun yolu təkcə ali təhsildən deyil, həm də peşə təhsilindən keçir. "Biz müəyyən etdik ki, əgər əvvəllər peşə təhsilinin bir səviyyəsi mövcud idisə, indi biz peşə təhsilinin 3 səviyyəsini - ilk peşə-ixtisas, texniki peşə təhsili və yüksək peşə təhsili müəyyənləşdirmişik". Bu o deməkdir ki, bu gün peşə təhsilində oxuyan insanlara imkan yaranır ki, istədiyi halda peşə təhsilində bütün pillələrdə təhsil almaqla daha çox öz gələcəklərinin təminatçısı ola bilərlər. F.Mustafayevin sözlərinə görə, sadəcə biliklər insanlara həyatda yer tutmaq üçün kifayət etmir. Biliklər bacarıqlara, səriştələrə çevrilməlidir. Bacarıqları əldə etmək üçün isə peşə təhsili ən düzgün, ideal seçimdir. Biz dünyada mövcud olan bütün təcrübələri ölkəmizə gətirmək istəyirik. Bu təcrübələrdən yararlanmaqla hesab edirik ki, övladlarımız elə bacarıqlara sahib olmalıdırlar ki, nəinki Azərbaycanda, yaxın və uzaq ölkələrdə belə özlərinə iş tapıb həyatlarını qura bilsinlər. "Bizim əsas işimiz yeniliklər, innovasiyalar istiqamətində olmalıdır. Çünki ənənəvi ixtisaslarla yanaşı bütün dünyanı irəli aparan, iqtisadiyyatı dirçəldən yüksək texnoloji biliklərə sahib olmaq istiqamətində bütün qurumlar, eləcə də təhsil müəssisələrinin də rolu olmalıdır".

### Maarifləndirməyə güclü ehtiyac var

Konfransda "Ümumtəhsil müəssisələrində peşəyönümü işinin səmərəliliyi üçün maarifləndirmənin aparılması" mövzusunda çıxış edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Məhəbbət Vəliyeva qeyd edib ki, tədbirin əsas mahiyyəti peşə təhsilinin təbliğini aparmaqdır. Peşə təhsilinin dövlət strategiyasında yer alması, növbəti mərhələdə isə Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması bu məsələnin nə dərəcədə önəmli və diqqət mərkəzində olmasından xəbər verir. Peşə təhsilində maarifləndirməyə güclü ehtiyacın olduğunu deyən M.Vəliyeva qeyd edib ki, inkişaf etmiş bir sıra ölkələrdə ibtidai təhsilin sonunda ibtidai sinif müəllimi şagirdin gələcək istiqamətini müəyyənləşdirir. Belə ki, müəllimin şagirdin gələcəkdə hansısa universitetdə təhsil alması barədə bir rəyi olur. Bu rəy dəyişə də bilər, amma əksər hallarda öz təsdiqini tapır. Niyə məhz ibtidai təhsil pilləsində? Çünki məhz ibtidai sinif müəllimləri şagirdlərə müxtəlif fənləri tədris etməklə yanaşı onların bacarıq və qabiliyyətlərini, meyil və maraqlarını da öyrənirlər. Buna görə də məktəb rəhbərliyinin də bu məsələni diqqətdə saxlaması çox vacibdir.

Konfransda daha sonra peşəyönümü işinin aparılması strategiyası, peşəyönümü işinin təbliği, peşə təhsilində dövlət-özəl əməkdaşlığı mövzularında təqdimatlar olub. İştirakçılar peşə təhsili müəssisələrinin məzunlarının uğur hekayələri ilə tanış olublar.

Tədbirin sonunda Peşə Təhsili üzrə Dövlət Agentliyi və "Hyatt Regency Baku" oteli arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə anlaşma memorandumu imzalanıb.

# Professor Nərgiz Paşayeva Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru Riçard Ovendenlə görüş keçirib

⇦ Əvvəli səh.1



Hersoq Hamfri kitabxanası Bodleyn Kitabxanasının ən qədim oxu zallarından biridir. XVI əsrin sonunda kitabxana tamamilə bağlanmaq təhlükəsi ilə üzləşdi. Kral VI Edvard kitab kolleksiyaları və hətta kitabxananın mebelini belə satmışdı. Kolleksiyada yalnız bir zamanlar Tomas Kobhem tərəfindən bağışlanan 3 cild qalmışdır. 1598-ci ildə kitabxananın dirçəlişi başlandı. Məhz o zaman Merton Kollecində yunan dilindən dərs demiş, Britaniya Parlamentinin keçmiş üzvü, İngiltərənin sabiq Dövlət katibi Tomas Bodli kitabxananın inkişafına dəstək vermək təklifi ilə universitetin vitse-kanslerinə məktub yazdı. Ser Bodli kitab saxlanan binanı tamamilə yenidən qurdu, şəxsən bir neçə cildlik kitabları buraya hədiyyə etdi və 1602-ci ildə Bodleyn kitabxanası Oksfordda rəsmən açıldı.

Bu gün Bodleyn kitabxanasında təxminən 11 milyon kitab və yazı nüsxələri yer alıb (kitab rəflərinin ümumi uzunluğu 200 km-dən artıqdır). Oxu zallarında 400-dən çox kitabxanaçı oxuculara xidmət göstərir. Nadir və qədim nüsxələrin əksəriyyəti rəqəmsal elektron vəsaitləri üzərində yerləşdirilib.

Oksford Universitetinin Bodleyn Kitabxanasının əsas binasında professor Nərgiz Paşayeva və kitabxananın direktoru Riçard Ovenden arasında keçirilən görüş zamanı akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə 2013-cü ildə Oksford Universitetinin bir struktur hissəsi kimi yaradılmış Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Elmi Mərkəzinin **(https://www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus)** fəaliyyəti geniş müzakirə olunub. Mərkəzin elmi-akademik fəaliyyətinin əhəmiyyətindən söz açılıb, fundamental elmi araşdırmalar sahəsində görülmüş işlər və Nizami Gəncəvi Elmi Mərkəzinin gələcək planlarına dair fikirlər səslənib. **Maraqlı və olduqca əhəmiyyətli keçən görüşün əsas məqsədi akademik Nərgiz Paşayeva tərəfindən irəli sürülmüş Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına Nizami Gəncəvinin adının verilməsi təklifinin müzakirəsi idi. Bu təklif Bodleyn kitabxanasının rəhbərliyi tərəfindən müsbət qarşılandı və yaxın gələcəkdə onun həyata keçiriləcəyi qeyd olundu. Görüş zamanı bir daha vurğulandı ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi böyük və dahi şəxsiyyətin humanizm, ümumbəşəri, insani ideyalarına, onun dərin fəlsəfəsi və yaradıcılığına verilən layiqli qiymətdir. Bu tarixi hadisə Nizami Gəncəvi Elmi Mərkəzinin son beş ildə Oksford Universitetinin bir hissəsi olaraq elmi-akademik, təhsil, arxeologiya və digər sahələrdəki gərgin əməyinin nəticəsi və təsdiqidir.** Görüşdə iştirak edən Oksford Universitetinin İnkişaf Departamentinin direktor vəzifəsini icra edən professor Entoni Qrin və Nizami Gəncəvi Mərkəzinin Böyük Britaniya tərəfdən rəhbəri, Oksford Universitetinin professoru Edmund Hertsiq Mərkəzin fəaliyyətini olduqca yüksək qiymətləndirərək qeyd etdilər ki, 2013-cü ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü və səyləri nəticəsində Oksford Universitetində yaradılan Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi dünya elmi ictimaiyyəti tərəfindən qəbul olunmuş qaydalara uyğun olaraq artıq beş ildir ki, uğurla fəaliyyət göstərir.

Görüşdən sonra professor N.Paşayeva Oksford Universitetinin alimləri ilə birgə Bodleyn kitabxanasının XV əsrdə ilk yaradılan hissələrindən olan İlahiyyat Məktəbində (Divinity School) oldular. Buradan başlanan və Bodleyndə saxlanan ən qədim əlyazmaların kolleksiyası və onların qorunması mərkəzində başa çatan bu gəzinti olduqca maraqlı keçib. Qeyd edək ki, İlahiyyat Məktəbi (Divinity School) 1427-1483-cü illər ərzində yaradılmış bir zaldır, burada xüsusi olaraq mühazirələr, teologiya haqqında müxtəlif müzakirələr və imtahanlar keçirilirdi. İlahiyyat Məktəbində mühüm tədbirlər və hətta kralların da görüşləri təşkil edilirdi. 1625-ci ildə Londonda vəba xəstəliyi tüğyan edən zaman burada hətta İcmalar Palatasının iclasları da keçirilirdi. İlahiyyat Məktəbinin tavanı Avropa hotik arxitekturasının ən böyük nailiyyətlərindən biri hesab olunur.

Bodleyn Kitabxanasının İnkişaf Departamentinin rəhbəri Eleyn Gallagher professor N.Paşayevanı həmçinin Bodleyn kitabxanasının Xüsusi Kolleksiyaları (Special Collection) bölməsi və Dyuk Hamfri kitabxanası (Duke Humfrey’s Library) adlandırılan oxu zalı ilə də tanış edib. Burada qədim əlyazmalar və arxiv materialları, nadir kitablar, tarixi əhəmiyyətli xəritələr, qədim musiqi nümunələri və rəqəmsal nüsxələr saxlanılır.

Qeyd edək ki, Nizami Gəncəvi adına Elmi Mərkəz Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin Universitetin tək Şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir. Mərkəz Azərbaycanın, Qafqazın və Orta Asiyanın zəngin tarixi-mədəni irsinin öyrənilməsi və Qərb akademik, elmi dairələrinə tanıdılması məqsədilə Oksford Universitetinin bir hissəsi olaraq yaradılmış ilk akademik elmi-tədqiqat ocağıdır.

Elmi Mərkəz yarandığı gündən bir sıra mühüm elmi-akademik layihələr həyata keçirmişdir. Onlardan 2015-ci ilin iyunun 6-da Oksford Universitetinin Nizami Gəncəvi adına Mərkəzin təşkil etdiyi və Oksford Universitetinin Şərqşünaslıq İnstitutu, həmçinin Qədim Antik Dövr Mərkəzi ilə birgə keçirdiyi ilk elmi tədbiri olan “Şərqi Qafqaz son antik dövrdən erkən İslam dövrünə qədər” adlı elmi-praktik konfransı qeyd etmək olar. Oksford Universitetinin tarixində ilk dəfə olaraq, konfransda Azərbaycanın qədim tarixi və mədəniyyəti məhz antik dövrdən İslam dövrünə qədərki müddətdə müzakirə edilmiş və gələcək tədqiqat işləri üçün atılacaq addımlar müəyyənləşdirilmişdir. Tədbirdə Mərkəzin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva, Mərkəzin İngiltərə tərəfdən rəhbəri professor Edmund Hertsiq, Böyük Britaniyanın Bizans imperiyasının tarixi üzrə ən tanınmış mütəxəssislərindən sayılan, Oksford Universitetinin Korpus Kristi Kollecinin fəxri üzvü professor Ceyms Hovard-Conston, Şotlandiyanın Edinburq Universitetinin Roma arxeologiyası üzrə professoru, Oksford və Tübingen universitetlərinin mühaziręçisi, eyni zamanda, Böyük Britaniyanın Farsşünaslıq İnstitutu və Romaşünaslıq təbliği cəmiyyətinin şura üzvü Eberhard Zaur, İngiltərənin Durham Universitetinin arxeologiya üzrə doktoru Dan Lourens, Almaniyanın Fredirix Şiller Universitetinin professoru Annaqret Plöntke Lüninq və başqaları iştirak ediblər.

2016-cı ilin iyunun 11-də Oksford Universitetinin ən qədim təhsil müəssisələrindən biri olan “Brasenose” kollecində Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin növbəti beynəlxalq elmi konfransı keçirilib. “Trans-Xəzər əlaqələri (V-XIII əsrlər)” mövzusuna həsr olunmuş konfransda Oksford Universitetinin alimlərilə yanaşı Rusiya Elmlər Akademiyasının ipək və kətan üzrə aparıcı arxeoloqu və tarixçisi professor Zvezdana Dode, Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzində arxeologiya departamentinin rəhbəri professor Murtazəli Hacıyev, Harvard Universitetinin aparıcı arxeoloqu doktor Kərim Əlizadə, Oksford Universitetinin tarixi antropologiya üzrə mütəxəssisi doktor İrina Şingiray, ABŞ-ın Pensilvaniya Universitetinin arxeologiya üzrə aparıcı mütəxəssisi doktor Lara Fabian, Kanadanın Saskatçevan və İngiltərənin Durham universitetlərinin doktoru Kristen Hopper və Oksford şəhərində yerləşən Ətraf Mühitin İdarə Olunması Təşkilatının aparıcı arxeoloqu Çarlz de Kesne də iştirak ediblər.

2017-ci ilin iyunun 5-də Londonda XIX əsr Kraliça Viktoriya dövründə təsviri incəsənətin əsasını qoyan məşhur rəssam Lord Leytonun (1830-1896) ev-muzeyində Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin şərqşünas-alim Yevgeniy Bertelsin (1890-1957) “Böyük Azərbaycan şairi Nizami” (The Great Azerbaijani Poet Nizami) kitabının ingilis dilində ilk akademik tərcüməsinin təqdimat mərasimi keçirilib. Bu kitab ilk dəfə 1940-cı ildə rus dilində çapdan çıxıb. Həmin vaxtdan etibarən kitab nəinki ingilis dilində, ümumiyyətlə, təkrar nəşr olunmayıb. Kitab üçün illüstrasiyaların orijinalları dünyanın ən zəngin və tanınmış kitabxanalarından olan Britaniya Kitabxanasından götürülüb və nəfis şəkildə Britaniyanın “Gilgamesh” nəşriyyat evində çap edilib.

Nizami Gəncəvi Elmi Mərkəzinin tədris sahəsindəki fəaliyyətini əks etdirən layihələrdən biri kimi Mərkəzin dəstəyi ilə Oksford Universitetinin Şərqşünaslıq fakültəsində altı tələbənin təhsil almasını qeyd etmək olar. Bu tələbələr (Ceymz Uayt, Keyti Kempbel, Robert Vilyams, Conatan Lorens - Böyük Britaniya, Eliz Maus Pyu - ABŞ, Ufuk Özturk - Almaniya) Oksfordda artıq Nizami Gəncəvi tələbələri adlandırılır və onların elmi işləri haqqında Mərkəz qısa zamanda hesabat hazırlayacaq.

Qafqaz Albaniyasının tarixinin düzgün istiqamətdə öyrənilməsi üçün Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın və Oksford Universitetinin professoru Robert Hoylandın təşəbbüsü ilə Oksford Universitetinin arxeoloqları 4 il bundan öncə ilk dəfə olaraq Bərdədə qazıntı işləri aparmaq üçün Azərbaycana səfər ediblər. Layihənin rəhbəri, qədim İslam tarixi üzrə dünyanın tanınmış alimlərindən sayılan professor Robert Hoylanddır. Oksford Universitetinin Brasenose Kollecinin doktoru Paul Vordvorsun rəhbərlik etdiyi 10 nəfərlik britaniyalı Arxeoloji Ekspedisiya heyəti 2015-ci ildən başlayaraq Bərdənin mərkəzində yerləşən Torpaq Qala ərazisində qazıntıları 11-13 əsr dərinliyinə çatdırıb. Bu alimlər arxeoloji qazıntılar nəticəsində Bərdənin kifayət qədər inkişaf etmiş şəhər olduğunu aşkara çıxarıblar. Bərdənin kənarında, Qaratəpə adlanan yerdə IV-V əsrlərə aid olan yaşayış məskəni aşkar edilib. Qazıntıların nəticəsi beynəlxalq elmi ictimaiyyətə məhz Azərbaycanın qədim tarixi kimi təqdim ediləcək. Məqsəd Bərdə və Qafqaz Albaniyasının başqa şəhərlərinin qədim irs və zəngin tarixi haqqında dünyanın elmi ictimaiyyətinə daha zəngin məlumat çatdırmaqdan ibarətdir. Onu da qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin arxeoloqlarından ibarət ekspedisiya heyəti Azərbaycan Tarix Muzeyi ilə əməkdaşlıq edir və muzeydə ekspedisiya üzvləri ilə Azərbaycan alimlərinin bir neçə görüşü də keçirilib. Həmçinin, arxeoloji qazıntılar nəticəsində tapılan eksponatlar qorunması və saxlanması üçün Tarix Muzeyinə təqdim olunub.

Nizami Gəncəvi Elmi Mərkəzi tərəfindən Azərbaycanda mədəni irsin qorunması məqsədilə ilk dəfə olaraq Britaniyanın “Sərhədsiz İrs” (Heritage Without Borders) təşkilatı Bərdə Arxeoloji Ekspedisiyasının işinə cəlb edilib. Bu təşkilat dünyanın müxtəlif bölgələrində bəşəriyyətin mədəni irsinin qorunması üçün aparıcı mütəxəssisləri bir araya gətirir və işlədiyi ölkələrdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələrinin qorunması və mühafizəsini təşkil edərək, gələcək nəsillərə ötürülməsini təmin edir. Məhz bu məqsədlə Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Bərdə Arxeoloji Ekspedisiyası çərçivəsində Britaniyanın “Sərhədsiz İrs” təşkilatının rəhbəri, arxeologiya üzrə mütəxəssis doktor Dominika Darkangelo Bakıda və Bərdədə olub və Azərbaycan Tarix Muzeyinin əməkdaşlarına arxeoloji tapıntıların qorunması və mühafizəsi, aşkar edilən maddi-mədəniyyət nümunələrinin konservasiyası və saxlanma üsulları ilə bağlı tövsiyələrini verib.

Bu ilin sonuna qədər Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi Mərkəzi tərəfindən Bərdədə aparılan qazıntı işləri ilə bağlı elmi-akademik təqdimatın keçirilməsi nəzərdə tutulur. Onu da qeyd edək ki, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın təklifi ilə Mərkəzin arxeoloji ekspedisiyası 2017-ci ildən Bakı Dövlət Universitetinin tarix fakültəsinin arxeologiya bölməsinin bir aspirantının (Aslan Qasımov) və iki tələbəsinin (Elşən Salayev, Mircavid Ağalarov) arxeologiya sahəsində elmi və praktiki biliklərinin artırılması üçün Bərdədə aparılan işlərə cəlb edib.

Beləliklə, dünyanın ən qədim və zəngin kitabxanalarından olan Bodleyn kitabxanasında M.V.Lomonosov adına MDU-nun Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayeva və Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru, dünya kitabxanaşünaslıq elminin nüfuzlu nümayəndələrindən olan Riçard Ovenden arasında keçirilən bu mühüm görüş olduqca əhəmiyyətli və səmərəli olub. Böyük Azərbaycan şairi, dahi Nizami Gəncəvinin adının dünyanın ən qədim elm və təhsil ocaqlarından olan Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına verilməsi ilə bağlı razılığın əldə olunması tarixi hadisədir və son beş ildə Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin böyük əməyinin nəticəsidir.

Görüşün sonunda akademik Nərgiz Paşayeva Oksford Universitetinin Bodleyn Kitabxanasının Fəxri qonaqlar kitabına xoş təəssüratlarını yazıb.

## Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri UFAZ-da olub

Aprelin 30-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Alen Uper ilə görüşüb.

Fransa və Azərbaycan əlaqələri, iki ölkənin tarixi əməkdaşlığı haqqında danışan rektor, professor M.Babanlı Fransa ilə təhsil sahəsində əlaqələrin inkişafından və UFAZ layihəsinin iki ölkənin təhsil və əməkdaşlığındakı rolundan bəhs edib. UFAZ-a qəbul, tədris prosesi və ixtisaslar haqqında qonaqlara geniş məlumat verən professor M.Babanlı Strasburq və Renn-1 universitetləri ilə əlaqələrin inkişaf etdiyini, texniki ali təhsil sahəsində Avropanın qabaqcıl ölkəsi kimi Fransa ilə təcrübələrin birləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Alen Uper ölkəsinin fundamental araşdırmalar üzrə dünya miqyasında tanındığını qeyd edərək təhsil və digər elmi tədqiqat işləri üzrə Azərbaycanla əlaqələrin davam etdirilməsinə çalışdıqlarını bildirib. O, neft ölkəsi kimi tanınan Azərbaycanın neftlə yanaşı, təhsil və digər sahələrdə də potensialının inkişaf etdirilməsinin və bu sahədə Fransa ilə əlaqələrin genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

## Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılıb

Aprelin 26-da Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın təşəbbüsü, Azərbaycan Respublikasının Serbiyadakı səfirliyinin və Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Belqrad Universitetində yaradılan “Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi”nin rəsmi açılış mərasimi keçirilib.

Belqrad Universitetinin rektoru Vladimir Bumbaşireviç mərkəzin yaradılmasının iki ölkə arasında mədəni və humanitar əlaqələrin daha da inkişafına xidmət edəcəyini söyləyib. Rektor Azərbaycanın Serbiyada həyata keçirdiyi bir çox humanitar layihələri yüksək qiymətləndirərək, bunun ölkəsi tərəfindən rəğbətlə qarşılandığını qeyd edib. Bildirib ki, Azərbaycan və Serbiya xalqları oxşar mədəniyyətə sahibdir: “Bu gün tələbələrimiz Azərbaycan mədəniyyətinə yüksək maraq göstərir. Mərkəzin xalqlarımızın mədəniyyətini birləşdirəcək yeni bir körpü olacağına əminəm. Həmçinin may ayında Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzi yaradılacaq. Bu əməkdaşlıq Azərbaycan-Serbiya əlaqələrində çox önəmli yerə malikdir”.

Azərbaycan Respublikasının Serbiyadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənov çıxışında Azərbaycanla Serbiya arasındakı münasibətlərin dinamik şəkildə yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və siyasi əlaqələrlə yanaşı, iqtisadi, mədəni, humanitar və digər sahələrdə də fəal əməkdaşlığın mövcud olduğunu deyib. Səfir qeyd edib ki, Belqrad Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında imzalanacaq əməkdaşlıq haqqında saziş hər iki ölkənin təhsil və elm sahəsindəki əlaqələrinin daha da genişləndirilməsinə xidmət edəcək, qarşılıqlı tələbə və təcrübə mübadiləsini zənginləşdirəcək.

ADU-nun prorektoru, professor Əfqan Abdullayev rektor Kamal Abdullanın təbrik məktubunu oxuyub. Professor mərkəzin fəaliyyətinin ölkələrarası mədəni münasibətlərin daha da genişlənməsində, habelə Azərbaycanın zəngin mədəniyyətinin təbliği istiqamətində mühüm rol oynayacağına əminliyini bildirib. O, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda multikulturalizm ənənələrinin, tolerantlığın təşəkkül tapması və etnik azlıqlar arasında qarşılıqlı anlaşmanın təşviq edilməsindən bəhs edib.

Filologiya fakültəsinin dekanı Lyilyana Markoviç mərkəzin fəaliyyətini tələbələrin və bütün Serbiyanın Cənubi Qafqaz və türk mədəniyyəti ilə əyani tanışlığı üçün böyük fürsət kimi dəyərləndirib.

“Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi”-nin müdiri dosent Lalə Məcidova bu layihənin həyata keçməsi üçün göstərilən dəstəyə görə hər iki universitetin rəhbərliyinə və Azərbaycanın Serbiyadakı səfirliyinə təşəkkürünü bildirib.

Sonra Belqrad Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

**Böyüməkdə olan nəslin mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran çox mühüm vəzifədir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

**Həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Ümumtəhsil məktəblərində uşaq və gənclərlə aparılan ideoloji işin əsas istiqamətləri



**Aydın ƏHMƏDOV,**
*Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri, Əməkdar müəllim*

Hər bir dövlətin dövlətlər arasında, beynəlxalq aləmdə nüfuzu və siyasi imici sosial-iqtisadi qüdrəti ilə yanaşı, eyni zamanda onun ideoloji əsaslarının mütərəqqi və humanist xarakteri ilə dəyərləndirilir. Vətəndaşlarının mənəvi zənginliyi, vətənpərvərliyi və tolerantlığı, əslində, həmin ölkənin dövlətçilik ideologiyasının milli və bəşəri dəyərlər üzərində qurulmasının, bilavasitə insanların mənafeyinə yönəldilməsinin real göstəricisidir.

Böyük türk mütəfəkkiri Ziya Göyalpın məşhur fikridir ki, *"Məfkurəsiz dövlətlər hər an qopacaq bir qiyaməti gözləyirlər. Diriləndən və yaradan bir məfkurəyə malik olan hər dövlət ölməzdir".*

Bu mənada böyük iftixar hissi ilə demək lazımdır ki, ideya müəllifi və yaradıcısı ümummilli liderimiz Heydər Əliyev olan azərbaycançılıq məfkurəsi milli həmrəyliyi, ölkəmizdə yaşayan bütün millət və xalqların birliyini təcəssüm etdirməklə müstəqil Azərbaycanın rəsmi dövlət ideologiyasına çevrilmişdir. Bu ideologiya ulu öndərin irəli sürdüyü "Xalq dövlət üçün yox , dövlət xalq üçün olmalıdır" müddəasının parlaq təzahürüdür.

*"Bizim üçün tarixi bir amal var - azərbaycançılıq" deyən ümummilli liderimizin yığcam və hamı üçün əlçatan sadə dildə ifadə olunmuş fikrinə görə, "Azərbaycançılıq - öz milli mənsubiyyətinin, milli-mənəvi dəyərlərin saxlanması, eyni zamanda onların ümumbəşəri dəyərlərin sintezi, inteqrasiyası ilə zənginləşməsi, hər bir insanın inkişafının təmin edilməsi deməkdir".*

Göründüyü kimi, azərbaycançılıq ideologiyasının mahiyyəti, məna tutumu çox dərindir və fəlsəfi baxımdan yanaşsaq, hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının həyat yolunu, bugünümüzə və gələcəyə baxışlarını müəyyən edir.

Heç də təsadüfi deyil ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda azərbaycançılıq ideyalarına sadiq vətəndaşın yetişdirilməsi təhsilin əsas məqsəd və vəzifələrindən biri hesab edilmişdir. Bu mənada, heç şübhəsiz, azərbaycançılıq məfkurəsinin əsas qayəsinin və ideyasının gənc nəslə aşılanması, onların Vətənə, dövlətçiliyə, dövlət rəmzlərinə, ilk növbədə, Azərbaycanın Himninə və Bayrağına, milli-mənəvi dəyərlərə hörmət və sadiqlik, ekstremist və düşmən qüvvələrə isə barışmazlıq ruhunda tərbiyəsi, xüsusilə də torpaqlarımızın bir hissəsinin işğal altında qaldığı bir vaxtda orduda xidmətin, vətənin müdafiəsinin şərəf və ləyaqət nümunəsi olması ideyasının təbliği və təşviqi ümumtəhsil məktəblərində aparılan ideoloji işlərin vacib tərkib hissəsi kimi qəbul olunur.

Müasir dünyamızda inteqrasiya meyillərinin və mobilliyin güclənməsi, əxlaqi dəyərlərə və mədəniyyətlərə müxtəlif yanaşma və baxışların yaranması ilə müşayiət olunan qloballaşma təzahürlərinin getdikcə daha geniş vüsət aldığı indiki şəraitdə bu, taleyüklü vacib problem kimi meydana çıxır. Yəqin belə bir fikir də ciddi mübahisə doğurmaz ki, bütün dövrlərdə əqidəli, sədaqətli, vətənpərvər, millətinin səadəti yolunda hər cür çətinliyə və cəfalara sinə gərən mübariz insanlara cəmiyyətdə daha çox hörmət və ehtiram göstərilmiş, minnətdarlıqla yad edilmişlər.

Eyni zamanda, bu da inkarolunmaz faktdır ki, hazırda elmi nailiyyətlərin durmadan artması, texniki tərəqqinin sürətli inkişafı, informasiya məkanının anbaan genişlənməsi, bütün fəaliyyət sahələrində rəqabətin güclənməsi cəmiyyətdə *"bilikli insan"* amilinə böyük tələbat yaratmışdır. İnkişafın lokomotivi sayılan biliklərə yiyələnmənin, qazanılan bilikləri bacarığa və şəxsi dəyərə çevirə bilən insanın formalaşdırılmasının əsası, bünövrəsi isə ümumtəhsil məktəblərində qoyulur.

Bununla belə, məlum məsələdir ki, ümumi təhsilə cəlb edilmiş uşaqlar potensial imkanları və intellektləri, istedadları, təhsilalma bacarıqları və təlim göstəriciləri baxımından heç də eyni səviyyəli olmurlar. Məktəbin məzunları arasından gələcəyin alimi, mütəxəssisi, sənətkarı da yetişir, sadə peşə sahibləri də azlıq təşkil etmir. Lakin həyatda tutduğu mövqeyindən, təhsil səviyyəsindən, peşəsindən asılı olmayaraq, hamı öz ölkəsinin sadiq vətəndaşı olmalıdır. Vətən təəssübünün, vətəndaşlıq və dövlətçilik mövqeyinin üstün tutulması baxımından cəmiyyətdə hamıya eyni tələb mövcuddur. Doğrudur, hər bir ölkəyə inkişaf üçün yüksək bilikli, elmli insanlar çox lazımdır, lakin onların qəlbində Vətən, millət, xalq sevgisi, mənsub olduğu dövlətə sədaqət olmazsa, belələrinin elmi də, istedadı da heç nəyə yaramaz.

Bu mənada qətiyyətlə deyə bilərik ki, heç bir uşağı nəzərdən qaçırmamaqla və hər bir uşağa *"sən dövlət, cəmiyyət üçün gərəkli şəxssən"* fikrini aşılamaqla onların hər birinin həyatda layiq olduqları yeri tuta bilmələri yönümündə dəstəkləyici pedaqoji tədbirlər görmək, savad, bilik əldə etmələri üçün etibarlı zəmin yaratmaq məktəbin bir vəzifəsidirsə, əsl insan, əqidəli vətəndaş tərbiyə etmək onun ikiqat vəzifəsidir. Ulu öndər Heydər Əliyevin hamıya örnək olan ibrətamiz fikridir ki, *"Milli qürur hissi hər birimizdə bütün duyğulardan üstün olmalıdır. Hər bir kəsdə vətəndaşlıq hissi, Vətənin taleyi ilə yaşamaq hissi yüksək səviyyədə olmalıdır".* Heç şübhəsiz, məşhurların bu fikirləri ilə də həmrəy olaraq ki, *"Bütün millətin rifah halı uşaqların tərbiyəsindən asılıdır"* (Con Lokk - ingilis pedaqoqu), *"Məktəblərdə ən azı digər dərslər qədər tərbiyə və millilik üzərində dayanılmalıdır ki, vətəni cənnətə çevirəcək sağlam ruh və sağlam xarakterli nəsillər yetişə bilsin"* (Əbdülfəttah Şahintürk alimi və mütəfəkkiri).

Ümumtəhsil məktəblərində uşaq və yeniyetmələrlə ideoloji sahədə aparılan işlərin arzuolunan müsbət nəticə verməsini istəyiriksə, şüarçılıqdan, ən başlıcası isə kampaniyaçılıqdan kənar olmalıyıq. Şagirdə *"vətənpərvər olmaq lazımdır"* deməklə vətənpərvərlik hissini aşılamaq mümkün deyil. Bu işlər sistemli, inandırıcı xarakter daşımalı, həyata keçirilən təbliğat-təşviqat tədbirlərinin səmərəliliyi əvvəlcədən ciddi nəzərə alınmalıdır. İlk növbədə, şagird ona yüksək dəyər və keyfiyyətlər təbliğ edən müəllimə, rəhbər işçiyə inanmalı, onu nümunə kimi qəbul etməlidir. Çünki həyati təcrübə də göstərir ki, tələb edən tələb etdiyinə özü riayət etməzsə, onun təbliğatının qarşı tərəfə effektli təsiri olmur.

Diqqətdə belə bir məsələni də saxlamaq lazımdır ki, uşaqlara təlqin olunan mənəvi dəyərlərlə həyatda baş verən hadisələr arasında bəzi uyğunsuzluqların müşahidə edilməsi onlarda inamsızlıq yarada, dünyagörüşlərinə mənfi izlər sala bilər. Məsələn, bəzi telekanallarda heç bir sosial-ictimai, tərbiyəvi əhəmiyyət kəsb etməyən bayağı şouların nümayişi, zərərli dini ideyalar yayan insanların və kitabların mövcudluğu, bir sıra şəxslərin qazanclarına rəğmən təmtəraqlı həyat tərzi keçirməsi, proteksiya yolu ilə orduda xidmətdən yayınma cəhdləri, yaxud bugünümüzün reallıqları ilə uzlaşmayan məlumatların sosial şəbəkələrdə özünə yer tapması və sair bu kimi faktlar uşaqlara heç də təsirsiz ötüşmür. Həm də əgər nəzərə alsaq ki, uşaqlar savad, intellekt, dünyagörüş, həyata baxış cəhətdən fərqli ailələrdə yaşayır və müxtəlif mikromühitlərdə böyüyürlər, bu zaman məsələnin ciddiliyi daha aydın görünür. Belə olan halda, məktəbin qabaqlayıcı, tənzimləyici, korreksiyaedici funksiyası, pedaqoji kollektivin peşəkarlığı vacib amil kimi meydana çıxır. Bu məqamlarda, əlbəttə, istifadə edilən pedaqoji üsul və yanaşmaların düzgün seçilməsi mühüm əhəmiyyət daşıyır və həyatda hələ bərkdən-boşdan çıxmamış uşaqlara əsl həqiqət, yəni bu kimi halların müvəqqəti xarakterdə olması, dövlətimizin həmin yabançı faktlara qarşı ciddi mübarizə aparması, mənəvi zənginliyin hər şeydən üstün tutulması inandırıcı dəlillərlə izah edilməlidir.

Hesab edirik ki, problemin vacibliyini nəzərə alaraq, məktəblərimizdə ideoloji xarakterli tədbirlərin nəticə etibarı ilə keyfiyyətinin təmin olunması məqsədilə səmərəli iş sisteminin qurulması və bu tədbirlərin ayrıca bölmə kimi müəssisənin fəaliyyət planına daxil edilməsi məqsədəmüvafiq olardı.

Ümumiyyətlə isə, azərbaycançılıq məfkurəsinin ulu öndər tərəfindən müəyyənləşdirilmiş ideya istiqamətlərini rəhbər tutaraq, məktəblərdə yaş səviyyələri nəzərə alınmaqla uşaq və yeniyetmələrin ideoloji tərbiyəsi yönümündə həyata keçirilməsi zəruri sayılan işləri, əsasən, aşağıdakı kimi təsnif etmək olar:

*** Uşaq və yeniyetmələrdə ölkəmizdə baş verən ictimai-siyasi, sosial hadisələrə, əldə olunan nailiyyətlərə obyektiv münasibətin yaradılması.**

Burada uşaqların diqqəti davamlı olaraq ölkədə cənab Prezidentin rəhbərliyi ilə aparılan quruculuq işlərinə, xüsusilə, ordu quruculuğuna, iqtisadi inkişafa və onun real nəticələrinə, vətəndaşların rifah halının yüksəlməsinə, o cümlədən məcburi köçkün soydaşlarımızın sosial müdafiəsi ilə bağlı görülən tədbirlərə, dövlət başçımızın məqsədyönlü daxili və xarici siyasətinin uğurlarına, işğal olunmuş torpaqlarımızın azad edilməsi sahəsində həyata keçirdiyi genişmiqyaslı işlərə, Azərbaycanın regionda lider dövlətə çevrilməsinə, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasının parlaq təzahürü kimi, Azərbaycanın 2011-ci ildə 155 dövlətin səsini toplayaraq 2 il müddətinə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə, ölkəmizin beynəlxalq səviyyəli idman yarışlarına, müsabiqələrə, siyasi tədbirlərə ev sahibliyi etməsinə, eləcə də digər nailiyyətlərə yönəldilməlidir ki, onlar bütün bu məsələlər haqqında zəruri məlumatlar əldə etməklə maariflənə bilsinlər. Çünki məlumatsızlıq uşaqlarda biganəlik və laqeydlik halları yarada bilər ki, bu da onların vətəndaşlıq tərbiyəsində boşluqların əmələ gəlməsi ilə nəticələnər.

*** Milli özünüdərk və milli iftixar hissinin, milli düşüncə və milli təfəkkürün formalaşdırılması.**

Azərbaycanın qədim tarixi, elmi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti, dövlətçilik ənənələri, tarixi şəxsiyyətləri, Azərbaycanın dövlət rəmzləri bu məsələnin uşaqlara aşılanmasında müstəsna əhəmiyyət kəsb edir. Elmi-tarixi, ədəbi-bədii materialların zənginliyi fonunda müəllimlərin pedaqoji ustalığı ondan ibarət olmalıdır ki, onlar şagirdlərin şüuruna, dünyagörüşünə, hissiyyatlarına təsir edə biləcək nümunələr əsasında müvafiq izahat işi aparsınlar, elə sistemli tədbirlər həyata keçirsinlər ki, bunlar onların qəlbində ən ülvi duyğular oyatsın. Əlbəttə, ictimai-humanitar fənlərin tədrisi həmin işlərdə mühüm rol oynayır, lakin proqram materialları ilə kifayətlənmək düzgün olmazdı. Azərbaycanın zəngin ana dili, flora-faunası, mədəniyyət abidələri, görkəmli tarixi və ədəbi şəxsiyyətləri, milli-mənəvi dəyərləri, xalqımızın mentaliteti uşaqlarda milli iftixar hissinin, milli təfəkkürün inkişaf etdirilməsi üçün əvəzsiz mənbədir. Yəqin, elə bir azərbaycanlı, Azərbaycan vətəndaşı tapılmaz ki, bir əsr bundan əvvəl qurulan Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk parlamentli respublika olması ilə, eləcə də bugünkü müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Vətən və xalq qarşısında ölçüyəgəlməz misilsiz xidmətləri ilə, həmçinin Ermənistanın məkrli işğalçı qüvvələrinə qarşı döyüş bölgələrində müstəsna qəhrəmanlıq göstərən və bu yolda şəhid, qazi olmuş əsgərlərimizlə, rəşadətli ordumuzun Lələtəpə vuruşlarında möhtəşəm tarixi qələbəsi ilə, dövlətimizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli göstərişinə əsasən, işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası və bununla da doğma torpaqlarımıza "böyük qayıdış"ın başlanması ilə fəxr etməsin. Elə bir soydaşımız olmaz ki, cənab Prezidentin *"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaqdır"* sözləri onun qəlbində hədsiz sevinc, yüksək qürur hissi və dövlətimizin qüdrətinə böyük inam oyatmasın. Yaxşı olardı ki, bu hissləri, vətənpərvərlik duyğularını daha da qüvvətləndirmək üçün yaşadıqları məntəqənin tarix və coğrafiyasının, flora-faunasının, tarixi abidələrinin, özünəməxsus adət-ənənələrinin, tanınmış və nüfuzlu insanlarının həyat yolunun, folklor nümunələrinin şagirdlər tərəfindən öyrənilməsi təşkil edilsin. Çünki bəzən bir ağac, bir çiçək, yaxud bir abidə, bir şəxsiyyət də insanda milli qürur yaranmasına yetərli olur.

*** Milli-mənəvi dəyərlərin, o cümlədən islam dəyərlərinin, sağlam həyat tərzinin üstün tutulması, ümumbəşəri və multikultural dəyərlərə hörmət aşılanması.**

Belə bir məşhur ifadə var ki, *"keçmişini unutsan gələcək səni topa tutar".* Xalqımızın uzun əsrlərdən bəri yaradıb formalaşdırdığı və nəsillərə ərməğan etdiyi milli-mənəvi dəyərlər - ailə namusu və etikası, soykökünə və torpağa bağlılıq, *"Vətən sevgisi imandandır"* ideyasına sadiqlik, böyük-kiçiyə hörmət və ehtiram, sözübütövlük, mərdlik, ədalətlilik və sair bu kimi keyfiyyətlər, sözün əsl mənasında, mənəvi sərvətdir. Həmin sərvəti qorumaq, mühafizə etmək və hər kəsin həyat idealına çevirmək vətəndaşlıq borcudur və bu iş məhz uşağın erkən yaş dövründən, məktəbə qədəm basdığı andan başlanmalıdır. Bu məsələnin reallaşdırılması üçün istənilən qədər həyati hadisələr, şəxsi nümunələr vardır. Bu keyfiyyətlərin təbliğində bədii əsərlər, ədəbi qəhrəmanlar, eləcə də görkəmli şəxsiyyətlərin ibrətamiz ömür yolu müstəsna rola malikdir. Nəzərə alsaq ki, bu gün ayrı-ayrı kütləvi informasiya vasitələrində, müxtəlif sayt və kanallarda mentalitetimizə yad elementlərin yer alması uşaqlarda çaşqınlıq və onları düzgün yoldan sapdırma ehtimalı yarada bilər, o zaman məsələnin nə qədər ciddi mahiyyət daşıması göz önündədir. Təbii ki, bu istiqamətdə nəzərdə tutulan işlər ailələrlə sıx əməkdaşlıq şəraitində aparılmalıdır. Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun məşhur "Əsrə bərabər gün" romanında gözəl bir fikir vardır: *"İnsanın başqaları üçün görə biləcəyi ən yaxşı iş öz ailəsində ləyaqətli övladlar tərbiyə etməkdir".* Heç şübhəsiz, bu fikri geniş mənada məktəbin fəaliyyətinə də şamil etmək mümkündür.

Uşaqların sağlam həyat tərzinə istiqamətləndirilməsi də bugünümüzün aktual problemlərindən biridir. Həmişə deyirlər ki, *"Sağlam bədəndə sağlam ruh olar".* Bu, həqiqətdir. Həm də bu deyim fiziki sağlamlıqdan çox mənəvi sağlamlığa aiddir. Əgər milli mentalitetə malik, milli ruhlu vətəndaşdan danışırıqsa, sağlam həyat tərzini həyati normaya çevirə bilməyən, zərərli dini təbliğata, xurafata uyan kəs bütöv şəxsiyyət ola bilməz. Cəmiyyətimizdə, nə qədər mübarizə aparılsa da, çox təəssüf ki, alkoqollu içkilərə, narkotik vasitələrə meyilli insanlar, bu yabançı vərdişlərə aludə olanlar, həmçinin din pərdəsi altında adamların şüurunu korlayan və zəiflədənlər hələ də vardır. Belə şəxsləri uşaqlar da görür və iradəcə zəiflər onların təsiri altına da düşə bilər. Ona görə də uşaqlara sağlam həyat tərzinin təbliği, bu istiqamətdə aidiyyəti təşkilatlarla birgə müntəzəm tədbirlərin və layihələrin keçirilməsi məktəblərdə aparılan tərbiyə işlərinin mühüm tərkib hissəsinə çevrilməlidir.

İdeoloji işin təşkili, uşaqların tərbiyəsi ilə bağlı məsələlərdə bir məqam da önəmli xarakter daşıyır. Bu, onların milli dəyərlərlə yanaşı, ümumbəşəri, multikultural dəyərlərə hörmət ruhunda tərbiyə olunmasıdır.

Məlumdur ki, cənab Prezidentin sərəncamı ilə Azərbaycanda 2016-cı il "Multikulturalizm ili", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilmişdi. Bunların məna və mahiyyətini şagirdlər dərindən dərk etməlidirlər. Fərqli dinlərə, mədəniyyətlərə, dünyagörüşlərə dözümlü, tolerant münasibətin ümumbəşəri dəyər olduğunun, İslam dininin sülh və humanizm, bərabərlik və həmrəylik dini olmasının şagirdlərə konkret faktlar əsasında aşılanması onların şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bunun başqa bir müsbət cəhəti də vardır. Belə ruhda tərbiyə almayan uşaq hətta fərqli düşünən, fərqli təfəkkür tərzinə və həyat şəraitinə malik öz soydaşına, yoldaşına, həmkarına da dözümlü münasibət bəsləməyə bilər.

*** Cəmiyyətdə öz mövqeyinin və məsuliyyətinin dərk edilməsi.**

*Ulu öndər Heydər Əliyev gənclərə müraciətində deyirdi ki, "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərdənsiniz".*

Ümummilli liderimizin uşaq və gənclərimizə yüksək inam və məhəbbət ifadə edən konseptual istiqamətli bu fikri ilə ümumtəhsil məktəblərində təhsil alan hər bir şagirdin gələcək həyat yolunun obyektiv müəyyənləşdirilməsi baxımından təhsil işçiləri qarşısında vacib vəzifə qoyulur. Məktəblərimizdə bir sıra hallarda bu mühüm məsələyə etinasızlıq göstərilməsi real faktdır. Ümumi təhsilini bitirdikdən sonra hər bir uşağın cəmiyyətdə öz yerini tapa bilməsi, həyatda, necə deyərlər, "artıq adama" çevrilməməsi hamını düşündürməlidir. Uşağın öz gələcək taleyinə məsuliyyət hissi ilə yanaşmasını təmin etmək, uşaqlarda hələ erkən yaşdan başlayaraq məsuliyyət mədəniyyəti formalaşdırmaq məktəb təhsilində prioritet siyasət kimi qəbul olunmalıdır.

Bəzən, müəyyən uşaqların təhsil almağa marağının olmaması, yaxud zəif oxumaları əsas gətirilərək onlara diqqət yetirilmir, belə uşaqlara, yumşaq desək, hörmətlə yanaşmırlar. Bu, pedaqoji nöqteyi-nəzərdən tamamilə yanlış münasibətdir. Hər bir uşaqda istedad, qabiliyyət rüşeymi mövcuddur, sadəcə olaraq həmin cəhətləri görə bilmək, görüb qiymətləndirmək, inkişaf etdirmək, onlarda öz potensial imkanlarına inam yaratmağı bacarmaq lazımdır.

*** İntellektual səviyyənin yüksəldilməsi.**

Uşaqların intellektlərinin inkişafını, heç şübhəsiz, onlara yalnız fənlər üzrə proqram materialları çərçivəsində müəyyən biliklərin verilməsi ilə məhdudlaşdırmaq məsələyə birtərəfli yanaşmaq deməkdir. Uşaqların əldə etdikləri bilikləri tətbiq, sosial-ictimai hadisələri təhlil etməyə, bunlar arasında müqayisələr, paralellər aparmaqla müstəqil nəticə çıxarmağa, tədqiqat xarakterli yaradıcı işlərə, layihələrdə iştiraka cəlb olunması onların dünyagörüşünün genişlənməsinə, səviyyə artımına etibarlı zəmin yaradan amillərdəndir. İntellektin inkişafına mütaliə, incəsənət əsərləri ilə tanışlıq, teatr tamaşaları, tanınmış şəxsiyyətlərlə görüşlər, ekskursiyalar da əsaslı şəkildə müsbət təsir göstərir. Xüsusilə, uşaqların bədii, elmi-kütləvi əsərlərin mütaliəsinə istiqamətləndirilməsi, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ciddi əhəmiyyət kəsb edir. Son dövrlərdə uşaqların kitaba, mütaliəyə marağının azalması reallıqdır və bu, narahatlıq doğurmaya bilməz. *"Çox oxuyan yox, çox gəzən çox bilər"* məsəli, hesab edirik ki, müasir tələbatla o qədər də uzlaşmır. Məşhur filosof Sokratın fikridir ki, *"Mütaliə bir cəmiyyətin vərdişinə çevrilsə, həmin cəmiyyət xoşbəxt olar".*

Konkret faktlar məlumdur ki, az savadlı, dünyagörüşü məhdud, onu əhatə edən hadisələrin mahiyyətindən baş çıxarmayan insanları destruktiv xislətli qüvvələr daha tez təsir altına alır və onlardan öz məqsədləri üçün istifadə edirlər.

Əlbəttə, bir yazıda uşaq və yeniyetmələrlə görülməsi zəruri olan ideoloji işin bütün aspektlərini əhatə etmək imkan xaricindədir. Məqalədə qeyd olunan məsələlərə yaradıcı yanaşmaq, onların ətrafında müzakirələr aparmaq və yeni təkliflər irəli sürmək məqsədəmüvafiq olardı. Bütün bunlarla əlaqədar ideoloji sahədə ümumi məqsədimizi, vəzifələrimizi və fəaliyyətimizin konsepsiyasını müəyyən edən ulu öndərimizin biz təhsil işçilərinə ünvanladığı bu müdrik fikirləri daim yaddaşımızda səslənməlidir: *"Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü Vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək".*

# Musiqi Kolleci akademik Zərifə Əliyevanın 95 illiyini qeyd etdi



Yusif ƏLİYEV

Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci hər il xalqımızın böyük qızı, görkəmli alim və ictimai xadim Zərifə xanım Əliyevanın anadan olmasının ildönümünü ecazkar musiqinin dili ilə özünəməxsus şəkildə qeyd edir. Bu il də təhsil ocağının müəllim və tələbələri akademik Zərifə Əliyevanın 95 illiyinə maraqlı konsert proqramı hazırlamışdılar və onu aprelin 25-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında təqdim etdilər.

Ənənəvi tədbirə bu dəfə də Nəsimi Rayon İcra Hakimiyyəti dəstək vermişdi. Rayon icra hakimiyyətinin başçısı Asif Əsgərovun konsertdəki təbrik çıxışından məlum oldu ki, bu qurum kollecə, onun fəaliyyətinə xüsusi diqqət ayıraraq hər bir təşəbbüsünün reallaşması qarşısında yaşıl işıq yanmasına kömək edir. Müəllim və tələbələrə rayonun ictimai həyatındakı fəallığına və akademik Zərifə Əliyevanın xatirəsinə göstərdikləri hörmətə görə təşəkkür edən icra başçısı onu da dedi ki, kollecin təşkil etdiyi konsert oftalmoloq alimin 95 illiyi ilə bağlı rayonda keçirilən tədbirlərin ən maraqlılarındandır. Yeri gəlmişkən, bunu elə konsertdə icra başçısının özünün, Milli Konservatoriyanın rektoru, professor Siyavuş Kəriminin, tanınmış musiqi xadimlərinin iştirakı da təsdiq edirdi. Kollecin müəllimləri, tələbələri, valideynlər də konsertdə idilər.

Tədbiri Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov açaraq qonaqları salamladı, akademik Zərifə Əliyevanın xalqımız qarşısındakı xidmətlərindən, tibb elminin inkişafına verdiyi töhfələrdən danışdı, xatirəsinin həmişə kollecdə ehtiramla anıldığını bildirdi. N.Kazımov həm də təşəbbüslərini hər dəfə müdafiə edib, reallaşmasına kömək edən Nəsimi Rayon İcra Hakimiyyətinə, icra başçısı Asif Əsgərova minnətdarlıq etdi.

A.Əsgərov isə çıxışında kollecin Azərbaycanın musiqi mədəniyyətinin, ifaçılıq sənətinin inkişafındakı böyük rolundan söz açdı, peşəkar ifaçıların yetişdirilməsi istiqamətindəki fəaliyyətini yüksək dəyərləndirdi. İcra başçısı akademik Zərifə Əliyeva və ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinin rayonda silsilə tədbirlərlə qeyd olunduğunu, xatirələrinə hörmət və ehtiram sərgiləndiyini bildirdi və kollecin müəllim və tələbə kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Sonra kollecin müxtəlif müsabiqələrdə qalib olmuş bir neçə tələbəsi mükafatlandırıldı, onlara diplom və hədiyyələr təqdim edildi.

Bununla da tədbirin rəsmi hissəsi başa çatdı və teatrın səhnəsi kollecin istedadlı tələbələrinin ixtiyarına verildi. Onlar hazırladıqları zəngin repertuarlı konsert proqramını təqdim etdilər.

Qeyd edək ki, kollecdə artıq ənənədir. Bu cür tədbirlər üçün proqram tərtib edərkən orada təhsil ocağında öyrədilən bütün ixtisasların təmsilçilərinin olmasına çalışırlar. Bu dəfə də ənənə gözlənmişdi. Nağaraçalanlar ansamblının çıxışı ilə başlayan konsertdə kollecin xor kollektivi, qanun, tar, kaman, tuba, truba, zərb alətləri, akkardeon və s. alətlər üzrə ifaçılığı, xanəndəliyi öyrənən müxtəlif kurs tələbələri öz məharətlərini göstərdilər. Tələbələr dinləyicilərə ölkə və xarici bəstəkarların klassik əsərlərindən tutmuş xalq mahnılarımıza qədər ən müxtəlif janrlarda musiqilər ərməğan etdilər. Konsertin son nömrəsi olan nəfəs və zərb alətləri orkestrinin təqdimatında bəstəkar Qənbər Hüseynlinin məşhur "Cücələrim" mahnısının caz variantı isə mərasim iştirakçıları tərəfindən xüsusi alqışlandı.

Konsert bir daha göstərdi ki, vaxtilə böyük sənətkarlarımızın təhsil aldıqları kollecdə indi onların layiqli varisləri yetişir.

Proqramın sonunda kollecin direktoru N.Kazımov konsertin hazırlanmasında əməyi keçənlərin adını çəkib, onlara minnətdarlığını bildirdi.

# "Danışan ilmələr" adlı ədəbi-bədii gecə




Şakir CƏFƏROV

Bakıdakı Zaur Məmmədov adına 171 nömrəli tam orta məktəbdə Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr olunmuş "Danışan ilmələr" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, Xətai Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov, Xətai Rayon Gənclər və İdman İdarəsinin rəisi Əfqan Rzayev, Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon İdarəsinin əməkdaşları, müəllimlər, valideynlər və şagirdlər iştirak ediblər.

Öncə tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra qonaqları salamlayan məktəbin direktoru Zemfira Məsiyeva tədbir haqqında məlumat verib.

BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva görkəmli alim Mir Cəlal Paşayevin Azərbaycan elminin, ədəbiyyatının və təhsilinin inkişafındakı misilsiz xidmətlərindən danışıb. M.Vəliyeva qeyd edib ki, görkəmli yazıçı, böyük alim və pedaqoq Mir Cəlal Paşayev sözün əsl mənasında Azərbaycanın ədəbi-bədii fikrində və elmində özünəməxsus yeri olan böyük bir şəxsiyyətdir.

Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov tədbirin tərbiyəvi əhəmiyyətindən danışıb. Belə bir tədbirin paytaxtın digər məktəblərində də keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Tədbirdə Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" romanında "İtə ataram, yada satmaram" adlı hissənin şagirdlər tərəfindən hazırlanmış ədəbi-bədii kompozisiyası nümayiş olunub. Həmçinin Mir Cəlal Paşayevin həyat və yaradıcılığına həsr olunan videoçarx göstərilib.

# İşıqlı gələcək vəd edən şagird

## Təhsil naziri nümunəvi davranışına görə Tovuz məktəblisini mükafatlandırdı

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI



Tovuz məktəblisi göstərdi ki, rayonda təhsil məqsədinə gedən yoldan kənara çıxmayıb: "İdrisin nümunəvi davranışı nəinki 720 şagirdi olan Sahib İsgəndərov adına Əyyublu kənd tam orta məktəbi üçün, bütövlükdə 23 minlik Tovuz məktəbliləri üçün örnəkdir".

Məktəbin direktoru Nizami Məmmədov deyir ki, İdrisin babası İdris də bu məktəbdə oxuyub və o da mərd, halal insan idi. Sonra atası, 2010-cu ildən isə İdris bu məktəbin şagirdi olub. İdrisi fərqləndirən cəhətlərdən danışan N.Məmmədov şagirdi ilə bir dialoqunu xatırladıb: "Bir gün istədim ona tövsiyə verəm. Ondan soruşdum ki, ay bala, axı, sən niyə oxumursan? Oxumağın üstünlüklərindən danışdım ona. Təhsilin hər kəs üçün nə qədər lazımlı olduğunu başa salmağa çalışdım. Həmin söhbətdə verdiyi cavablar məni o qədər təəccübləndirdi ki. Dedi ki, müəllim, hamı oxumaz ki. "Mən sənətkar olacağam", – deyə planlarından danışdı. O danışdıqca mənə elə gəlirdi ki, sanki uşaqla yox, böyük bir adamla danışıram".

İdrisin sinif rəhbəri Nüşabə Əhmədova da şagirdindən razıdır. Nizam-intizamı, davamiyyəti, tərbiyəsi ilə müəlliminin sevimlisi olan İdrisin artıq bütün ölkədə sevilməsi onu heç təəccübləndirməyib: "Bütün fənlərə qarşı həvəsli olmasa da, dərslərdə, mövzuların müzakirəsində iştirakı, sinif və ümumiyyətlə, məktəb yoldaşlarıyla münasibəti onu əksəriyyətin sevimlisinə çevirib".

İdrisin Ramiz babası nəvəsi ilə qürur duyduğunu deyib: "Heç öz uğurlarıma bu qədər sevinib, qürurlanmamışam. Atası, anası uşaqlarına həmişə deyir. Uşaqlar da bilirlər ki, heç kimin haqqını yemək olmaz".

Təhsil Nazirliyinin İnformasiya şöbəsinin əməkdaşı Jalə Məmmədli etibar, güvən, dürüstlük nümayiş etdirdiyinə görə İdrisi dəyərləndirib: "İdris yəqin təəccüblənir ki, hər kəs onun davranışına niyə təəccüblənib. Axı, o, doğru olanı, hamının eləməli olduğunu edib. Ancaq təəssüf ki, heç də hər kəs onun kimi davranmır. Ona görə də artıq bir neçə gündür ki, evdə, işdə, mətbuatda ancaq İdrisdən danışırlar. Biz onun ailəsinə, müəllimlərinə, məktəbinə təşəkkür edirik ki, vətənə, millətə, dövlətə, sözün əsl mənasında, layiqli vətəndaş yetişdirirlər. Həyatının bundan sonrakı mərhələsində də İdrisin ancaq yaxşı sorağını eşidəcəyimizə şübhə etmirik. İdris kimi etibarlı, dəyərli insanlar indiyədək də yetişib. Amma bundan sonra onların sayı artacaq. Çünki müasir Azərbaycanın təhsil sisteminin qarşısına qoyduğu məqsəd məhz budur: vətənə cəsarətli əsgər, millətə onu sevən övlad, dövlətə layiqli vətəndaş yetişdirmək. İdris göstərdi ki, doğru yoldayıq".

J.Məmmədli bildirib ki, təhsil naziri Ceyhun Bayramov İdrisə Təhsil Nazirliyinin "Təşəkkürnamə"si ilə yanaşı, planşet və kitablar da hədiyyə edib. Həmin hədiyyələri təqdim edərək İdrisin üzərinə məsuliyyət qoyub: "Amma İdrisdən başqa gözləntilərimiz də var. Təhsilində də nəticələrini yaxşılaşdırmasını gözləyirik. Biz inanırıq ki, o, bunun da öhdəsindən gələ bilər".

### İdris çox halal uşaqdır

Anası İradə Məmmədovanı söhbətə tuturuq. Ancaq bu elə də asan deyil. Təbiətcə çox sakit görünən ana oğlunu öyməyi belə özünə rəva görmür. Niyə də öysün ki. Onun tərbiyə etdiyi uşaqdan bütün ölkə danışır. İradə xanımın İdrisdən başqa iki övladı da var. Onlar İdrisdən yaşca balacadır. Amma üçü də yaxşı bilir ki, başqasına aid olan heç nəyə əl vurmaq olmaz: "İdris özü də çox halal uşaqdı. Kiminsə haqqı olana göz dikməz. Atası da, mən də həmişə demişik. İnsan kasıb ola bilər, ancaq ona aid olmayana əl vurmaz. Oxumaya da bilər, ancaq insanlığını itirməməlidir".

### "Sənətkar olacağam"

İdris hədiyyələrini çox bəyənib. Deyir ki, nazirin göndərdiyi kitabların hamısını oxuyacaq. Dərsə gəlincə, müəllimləri onun qiymətlərindən narazı olsa da, özü vəziyyətindən razı görünür. Azərbaycan dili fənnini oxuyur. Tarix dərslərinə də maraq göstərir. Di gəl, riyaziyyat heç onluq deyil, deyəsən. Görəsən, məktəb direktoruna "Sənətkar olacağam", – deyən məşhur məktəblimizin fikrində nə var? Hansı peşəni seçmək, hansı sənətə yiyələnmək istəyir. Cavab təəccüblüdür. Sevmədiyi fənlərlə birbaşa əlaqəsi olan bir peşə seçib özünə: elektrik.

Evləri işıqlandırmaq istəyir. Dediyinə görə, heç kimi qaranlıqda qoymayacaq. Kumiri də dayısıdır: "Dayım elektrikdir, mən də elektrik olacağam. Ondan öyrənəcəyəm".

Geri qayıdırıq. Şübhə etmirik ki, İdris bir davranışı ilə sinif yoldaşlarının, dostlarının, hətta bütün tay-tuşlarının düşüncələrində bir suala aydınlıq gətirdi. Artıq çoxları tapdığı sahibsiz əşya ilə necə davransa, hərəkəti təqdir olunacağını bilir. Bu gün düşüncələri aydınlandıran uşaq sabah evləri işıqlandıracaq. Yolun uğurlu olsun, Azərbaycan məktəblisi. Bizim də səndən gözlədiyimiz məhz budur: bu gün davranışınla, sabah işinlə, uğurlarınla, qazandığın nailiyyətlərlə gələcəyimizi işıqlandır!

*Bakı-Tovuz-Bakı*

# Abituriyentlər üçün "Açıq qapı" günü

Nəcibə MİRZƏYEVA,
*Mətbuat və informasiya şöbəsinin müdiri*

Ənənəvi olaraq hər il aprel ayında Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) abituriyentlər üçün "Açıq qapı" günü keçirilir. 1, 2 və 5-ci qrupa daxil olmaq istəyən Bakı məktəbliləri universitet, professor-müəllim heyəti, fakültələr, ixtisaslar, laboratoriya və auditoriyalarla tanış olmaq üçün AzMİU-ya dəvət olunur, rəhbərlik həftənin bir gününü gələcək tələbələrinə həsr edir. Onlar üçün tanışlıq səfərindən tutmuş konsert proqramına, hətta çay süfrəsinə qədər təşkil edir.

Bu il də AzMİU həftə sonu abituriyentlər üçün "Açıq qapı" günü keçirdi. Universitetin qəbul komissiyası, Mətbuat və informasiya şöbəsi, dekanlıqlar, Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) ilə Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə yüksək səviyyədə təşkil olunmuş tədbirdə hər məsələnin ən xırda detala qədər ölçülüb-biçildiyi aşkar duyulurdu. Məktəblilərin, onların valideynlərinin, müəllimlərinin dəstə-dəstə universitetə axışması bu işdə yüksək təşkilatçılığın rol oynadığından xəbər verirdi. Eyni zamanda, gələn qonaqların AzMİU-nun ictimai təşkilatlarının fəalları tərəfindən gülərüzlə qarşılanması, onların hər cür diqqət və qayğı ilə əhatə olunması da diqqətimdən qaçmadı.

Mərasim başlamazdan əvvəl öyrəndim ki, tədbir açıq havada keçiriləcək. Ağıllı, düşünülmüş qərar idi. Saf, təravətli və ılıq yaz havasında yaşıllıq və gül-çiçəklə əhatələnmiş universitetin geniş, tər-təmiz həyəti - bundan ideal məkan təsəvvür etmək olmur.

Tədbir başlayır. Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova abituriyentləri, valideynləri, müəllimləri salamlayır, imtahanlarda abituriyentlərə uğurlar diləyib, düzgün seçim etmələrini arzulayır. Gülçöhrə xanım bu gün ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işlərini, inşaat sektorunda böyük canlanmanı nümunə gətirərək AzMİU-nun ixtisaslarının həmişə aktual olduğunu, hazırladıqları kadrlara hər yerdə ehtiyac duyulduğunu xüsusi vurğulayır. O, çıxışında AzMİU-nun tarixindən, fakültə və ixtisaslarından, universitetdə tələbələr üçün yaradılan şəraitdən, bir sözlə, yaxşı nə varsa, hamısından danışır. Fəxrlə qeyd edir ki, rəhbərlik etdiyi universitet bu günə qədər 50 mindən artıq ali təhsilli kadr hazırlayıb, Azərbaycanda müxtəlif dövlət və ali idarəetmə strukturlarına rəhbərlik edənlər arasında universitetin məzunları çoxluq təşkil edir. Rektor onu da bildirir ki, hazırda AzMİU-da 8 fakültədə 7000-ə yaxın tələbə təhsil alır, onlardan 700-ü xarici ölkə vətəndaşıdır, tədris 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. O, fakültələr, universitetin beynəlxalq əlaqələri barədə də geniş məlumat verir. Gülçöhrə Məmmədovanın verdiyi məlumata görə, AzMİU bu və ya digər proqramlar çərçivəsində 80-dək xarici ölkə universitetləri ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq ikili diplom proqramı, əməkdaşlıq müqavilələri, birgə mübadilə proqramları və digər beynəlxalq layihələr əsasında həyata keçirilir. Eyni zamanda AzMİU 2012-ci ildən Erasmus-Mundus layihələrinə, 2013-cü ildən isə Türkiyə Respublikasının Mövlanə Mübadilə Proqramına qoşulub, bu layihələr çərçivəsində 100-dən çox tələbə və müəllim mübadilə proqramlarında iştirak edib.

Rektordan sonra söz AzMİU-nun "Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması" kafedrasının müdiri Sahib Fərzəliyevə verilir. Sahib müəllim də universitetdə tədris olunan ixtisasların öz aktuallığını heç vaxt itirmədiyini, professor-müəllim heyətinin elm və texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə zamanın və dövrün tələblərinə uyğun mütəxəssislər yetişdirmək üçün daim axtarışda olduğunu qonaqların diqqətinə çatdırır.

Universitetə yüksək balla daxil olan inşaat-texnologiya fakültəsinin tələbəsi Fidan Məmmədzadə, mexanika və informasiya texnologiya fakültəsinin tələbəsi Əmrah İsmayıllı isə yaradılan şəffaf mühitdən, obyektivlikdən, imtahanlarda neqativ hallara yol verilmədiyindən danışır. Onlar oxuduqları ali təhsil ocağında tələbə-müəllim münasibətlərinin səmimiliyindən də razılıq edirlər, bu universitetdə oxuduqlarından qürur duyduqlarını, AzMİU-nu seçməkdə yanılmadıqlarını bildirirlər.

Rəsmi hissə bitir, abituriyentlər üçün daha maraqlı olan mərhələ başlayır - universitetlə, fakültələrlə yaxından tanışlıq. AzMİU-nun həmkarlar və gənclər təşkilatlarının fəal üzvlərinin müşayiəti ilə abituriyentlər və onların valideynləri AzMİU ilə yaxından tanış olurlar.

Seçəcəkləri fakültə, auditoriyalar, müəllimlər, laboratoriyalar onlar üçün maraqlıdır və bu maraq onların hər addımında hiss olunur. Xüsusi canfəşanlıqla bir-bir geniş və işıqlı otaqları gəzir, müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda hər şeylə maraqlanırlar. Abituriyentlərdə universitetin kitabxanası və muzeyə olan marağı da gördüm. Xüsusilə tələbə və müəllimlərin əl işlərindən ibarət olan Sərgi salonu onların çox xoşuna gəldi, sərgilənən rəsmlərə maraqla baxdılar, çox bəyənib yanında şəkil çəkdirdikləri də oldu.

Görüşün sonunda universitetin qonaqlar üçün təşkil etdiyi çay süfrəsinin arxasında müəllim və tələbə heyəti ilə səmimi söhbətlər edən abituriyentlərin, valideyn və müəllimlərin təəssüratlarını dinlədim. Məlum oldu ki, abituriyentlər görüşdən razı qalıblar, səmimi və isti münasibət onların çox xoşuna gəlib. Təbii ki, universitet də, auditoriyalar, müasir laboratoriyalar da.

## "Aləmə nur saçan işıq"

Zaqatala rayon Sumaylı kənd tam orta məktəbində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə məktəbin pedaqoji heyəti və şagirdlər iştirak ediblər.

Akademik Zərifə Əliyevanın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Giriş sözü ilə çıxış edən məktəbin direktoru alimin ömür yolu barədə iştirakçılara ətraflı məlumat verib.

Tədbirdə Zərifə xanımın həyatı və fəaliyyəti ilə bağlı məruzələr dinlənilib. Tədbir şagirdlərin ifasında şeir və kompozisiyalarla davam edib.

Daha sonra akademik Zərifə Əliyevaya həsr olunmuş "Aləmə nur saçan işıq" adlı film nümayiş etdirilib.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Birincilərin "Əlifba bayramı"

Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə I "a" və I "b" siniflərində "Əlifba bayramı" keçirilib. Tədbirdə təhsil şöbəsinin nümayəndələri, məktəb rəhbərliyi, müəllimlər və valideynlər iştirak ediblər. Tədbir Dövlət himninin səslənməsi ilə başlayıb.

Məktəbin direktoru Təranə Babayeva yeni təhsil sisteminin gələcəyimiz olan uşaqların layiqli vətəndaş kimi yetişməsinə xidmət etdiyini bildirib. O, birincilərə yaxşı oxumağı, Vətənə layiqli övlad kimi yetişməyi tövsiyə edib.

Müəllimlər birincilərin ilk sevinci - "Əlifba bayramı" münasibətilə onları təbrik edib və şagirdlərinə biliklərin açarı olan Əlifbadan başlayaraq bütün kitabları sevməyi və səylə biliklərə yiyələnməyi, Vətəni sevən, savadlı vətəndaş olmağı arzulayıb.

Birincilər isə öz növbələrində şeir deyib, mahnı oxuyub, rəqs edib və kiçik səhnəciklərlə tədbiri rövnəqləndiriblər.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*


Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedralarda vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| | | |
|---|---|---|
| Kino-televiziya sənətləri | - 0,5 ştat, professor | - 1 yer |
| Ədəbiyyat və dillər | - dosent | - 1 yer |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası təhsil nazirinin 07.08.1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" sənədin tələblərinə uyğun elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

**REKTORLUQ**



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4847, **Sifariş** 1351

**Məsul növbətçi:** Ş.Cəfərov


## "Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası"

İmişli rayonunun ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında dərs aparan müəllimlər üçün növbəti təlim keçirilib. "Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası" mövzusunda təlimin keçirilməsində məqsəd ibtidai sinif müəllimlərinə peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi istiqamətində dəstəyin göstərilməsidir. Təlimdə 12 nəfər ibtidai sinif müəllimi iştirak edib.

Təlim Təhsil Nazirliyinin sifarişi ilə "Təhsildə İnnovativ Texnologiyalar" Ələvə Təhsil Mərkəzi (İTE) tərəfindən həyata keçirilir.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*


## Elan

1978-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmiş məzunların nəzərinə çatdırılır ki, 2018-ci ilin 26 may tarixində saat 12:00-da universiteti bitirmələrinin 40 illiyi münasibəti ilə görüş keçiriləcək.

**Görüş yeri: ADPU-nun qarşısı**

**Əlaqə tel:** 050-335-93-37; 012-498-06-75
055-262-32-67; 012-539-64-00


# Etibarsız sayılır

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədzadə Sənubər Eldar qızına verilmiş B-045691 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 71 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Mürsəliyev Müşfiq Məzahir oğluna verilmiş A-615268 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Qaralar kənd tam orta məktəbini 1984-cü ildə bitirmiş Quliyev Elmar İkram oğluna verilmiş A-014276 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2017-ci ildə Nazarov Nicat Mamed oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1990-cı ildə Rufullayev Nazim Rufulla oğluna verilmiş TB-I-087479 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məmmədov Eldar Eyvaz oğluna verilmiş A-410661 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2007-ci ildə Əzizov Samir Əmirxan oğluna verilmiş B-130708 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 1997-ci ildə Məmmədov İlqar Rəcəb oğluna verilmiş M-000487 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** şəhər 2 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Abbaszadə Mahirə Hökməli qızına verilmiş A-667 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 13 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Şiriyeva Səbinə Şakir qızına verilmiş B-224787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 233 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədov Səid Sərdar oğluna verilmiş A-411439 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Məmmədova Türkan Elşən qızına verilmiş B-160402 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Heydərov Rəhim İlham oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Mühəndis İnşaat İnstitutu** tərəfindən 1979-cu ildə Qorin Sergey Borisoviçə verilmiş EB-265072 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Texnikumu** tərəfindən 1994-cü ildə Vəlibəyov Mahir Məzahir oğluna verilmiş PT-I-112419 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Zeynalova Gülgün Aqil qızına verilmiş B-359376 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbin nəzdində fəaliyyət göstərən qiyabi qrupun XII sinfini 2013-cü ildə bitirmiş Məmmədzadə Məhəmməd Fəxrəddin oğluna verilmiş A-194885 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası (indiki ADAU)** tərəfindən 1996-cı ildə Nəbiyev Rasim İsmayıl oğluna verilmiş AB-I-049307 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2003-cü ildə Sadıqzadə Afaq Vüqar qızına verilmiş A-144276 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1986-cı ildə Əliyev Süleyman Ədalət oğluna verilmiş HB-001329 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Seyidbazar kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Əsgərov Raqif Mirzəbala oğluna verilmiş 10 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Seyidbazar kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Quliyeva Sevda Arif qızına verilmiş 033231 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Azərbaycan Neft və Energetika Kolleci** tərəfindən 2015-ci ildə Məmmədov Qurban Nəbi oğluna verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Azərbaycan Neft və Energetika Kolleci** tərəfindən 2015-ci ildə Abdunzadə Elmin Vidadi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Zamanova Elza Nayıb qızına verilmiş AN-307250 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 95 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Həsənquliyeva Vəfa Umud qızına verilmiş B-219385 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qasımov Mahir Hökumulla oğluna verilmiş A-535338 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Sütəmurdov kənd tam orta məktəbini 1980-ci ildə bitirmiş Məhərrəmov Xəlil İbrahimxəlil oğluna verilmiş 407444 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Topalhəsənli kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Dünyamalıyev Bəhlul Adil oğluna verilmiş B-718835 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədov Fəxri Məmməd oğluna verilmiş E-005150 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2017-ci ildə Dadaşova Nuranə Faiq qızına verilmiş A-110534 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Kazımov Kənan Valeh oğluna verilmiş A-412254 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Səxavətli Orxan Vasif oğluna verilmiş A-122815 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1988-ci ildə Kazımova Məhəbbət Səməd qızına verilmiş PB-026485 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Gözəlov Elvin Adıgözəl oğluna verilmiş B-528618 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Həmidli Əfsanə Adil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1996-cı ildə Quliyev Çingiz Çərkəz oğluna verilmiş AB-I-014669 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Rzayeva Nərmin Mütəllim qızına verilmiş A-050265 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1990-cı ildə Əhmədov İlqar Əli oğluna verilmiş TB-I-090994 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirliyin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri

**SÜLHƏDDİN GÖZƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, BSU-nun Həmkarlar Təşkilatı və professor-müəllim heyəti Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri

**SÜLHƏDDİN GÖZƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecin direktoru Rüxsarə Əliyeva Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri

**SÜLHƏDDİN GÖZƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Bakı Humanitar Kollecinin rəhbərliyi və kollektivi Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri

**SÜLHƏDDİN GÖZƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 240 nömrəli tam orta məktəbin rəhbərliyi və pedaqoji kollektivi məktəbin rus dili müəllimi Heyran Zamanovaya həyat yoldaşı

**İSA ƏZİMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# 22 ölkə arasında səkkizinci

## Azərbaycanlı məktəblilərin növbəti olimpiada uğuru

**Oruc MUSTAFAYEV**



Azərbaycanlı məktəblilər beynəlxalq olimpiada tariximizə növbəti töhfələrini veriblər. Belarusun Minsk şəhərində 23-28 aprel tarixlərində keçirilən 52-ci Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında (52nd International Mendeleev Chemistry Olympiad) iştirak edən şagirdlərimiz daha bir uğura imza atıblar. Dünyanın 22 ölkəsindən 135 məktəblinin qatıldığı bilik yarışmasında Bakıdakı 160 nömrəli Klassik gimnaziyanın XI sinif şagirdi Nəriman Mirişov və Lənkəran şəhəri 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin eksperimental pilot siniflərinin XI sinif şagirdi Turan Məmmədli yüksək nəticə göstərərək gümüş medallara layiq görülüblər. Sayca 52-ci beynəlxalq olimpiada Belarus Təhsil Nazirliyi, Belarus Dövlət Universiteti və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin təşkilatçılığı ilə baş tutub.

Belarus, Bolqarıstan, Rusiya, Türkiyə, Macarıstan, Latviya, Litva, Gürcüstan, Ukrayna, Qazaxıstan, İsrail, Nigeriya və s. kimi ölkələrin məktəbliləri arasında keçirilən bilik yarışmasında Azərbaycan 5 nəfərdən ibarət komanda ilə təmsil olunub. Aprelin 28-də Təşkilat komitəsi olimpiadanın nəticələrini açıqlayıb. Azərbaycan bilik yarışında 22 ölkə arasında 8-ci yeri tutub. Qeyd edək ki, Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin dinləyiciləri olan şagirdlərimiz tədris ili boyunca bu olimpiadalara ciddi hazırlaşıb, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında həm nəzəri, həm də praktiki hazırlıq dərslərinə qatılıblar.

Təhsil Nazirliyinin beynəlxalq olimpiadalara hazırlıq prosesini təkmilləşdirməsi və diqqət mərkəzində saxlaması şagirdlərin müvəffəqiyyətli çıxışlarına səbəb olub. Nazirlik tərəfindən Fizika, riyaziyyat və informatika, Kimya-biologiya təmayüllü liseylərdə yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərində 200-ə yaxın şagird il ərzində hazırlıq prosesinə cəlb edilib.

Qeyd edək ki, Beynəlxalq Mendeleyev Kimya Olimpiadasının qalibləri qəbul imtahanı vermədən M.V.Lomonosov adına Moskva Dövlət Universitetində ödənişsiz oxuma hüququ qazanırlar. Biz də öz növbəmizdə, elm naminə Azərbaycan üçün dünya ilə yarışan şagirdlərimizi təbrik edir və növbəti olimpiadalarda onlara daha yüksək zirvələr arzulayırıq.

Qaliblərlə daha yaxından tanış olaq.

### "Növbəti olimpiadada da ölkəmi layiqincə təmsil etmək istəyirəm"

**Turan Məmmədli:** - 2000-ci il yanvarın 14-də Xızı rayonunun Giləzi kəndində ziyalı ailəsində anadan olub. 2007-ci ildə Giləzi kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2008-ci ildən 2013-cü ilə qədər təhsilini Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən Vüqar Mürsəlov adına 1 nömrəli orta məktəbdə davam etdirib. 2014-cü ildə "İstək" liseyinin keçirdiyi qəbul imtahanında yüksək nəticə göstərərək liseyə qəbul olunub. 2015-ci ildə respublika fənn olimpiadasında qızıl, 2016-cı ildə gümüş, 2017-ci ildə isə qızıl medal qazanıb. Ötən il Tailandda keçirilən 49-cu Beynəlxalq Kimya Olimpiadasında bürünc medala layiq görülüb.

- Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında ölkəmizi təmsil edəcək Azərbaycan komandasına seçimlər yarışdan 40 gün əvvəl keçirildi. Seçimlərdən sonra Rusiyadan dəvət olunmuş müəllimlər bizə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında 40 günlük intensiv dərs keçdilər. Mən bu olimpiadada dünyanın fərqli 22 ölkəsindən olan şagirdlərlə yarışmaqdan əlavə informasiya mübadiləsi aparıb öz ölkəm haqqında onlara geniş məlumat verdim. Mən çox sevinirəm ki, bu olimpiadada gümüş medal qazanaraq ölkəmin bayrağını xarici arenada dalğalandıra bildim. Bundan sonra isə Çexiya və Slovakiyanın birgə ev sahibliyi edəcəyi növbəti, 50-ci Beynəlxalq Kimya Olimpiadasında da ölkəmi layiqincə təmsil etmək istəyirəm.

### "Dünya olimpiadasına hazırlaşırıq"

**Nəriman Mirişov:** - 2000-ci ildə Bakıda anadan olub. 2007-ci ildə 160 nömrəli Klassik gimnaziyanın I sinfinə gedib. Hazırda bu məktəbin XI sinif şagirdidir. Məktəbin əlaçı şagirdlərindəndir. Təbiət elmlərinə daha böyük maraq göstərdiyindən təbiət elmləri təmayüllu sinifdə təhsil alır. 2015-2016-cı və 2016-2017-ci tədris illərində kimya fənn olimpiadalarının məktəb turunda I yeri qazanıb. 2016-cı ildə kimya fənni üzrə respublika fənn olimpiadasında I yerə layiq görülüb. 2016-cı ildə kimya üzrə Azərbaycan yığma komandası tərkibində Moskvada keçirilən Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında iştirak edib. Eləcə də Tbilisidə keçirilən Beynəlxalq Kimya Olimpiadasında III yerə layiq görülüb.

- 52-ci Beynəlxalq Mendeleyev Kimya Olimpiadası çox yüksək səviyyədə təşkil olunmuşdu. Bu olimpiadadan gözlədiyim medalı alıb ölkəmi elm səhnəsində təmsil edə bildim. Məlumdur ki, fənn olimpiadaları arasında Beynəlxalq Mendeleyev Kimya Olimpiadası xüsusi yer tutur. Olimpiada 3 turdan ibarət olur: iki nəzəri və bir təcrübi. Qarşıdan kimya üzrə Dünya Olimpiadası gəlir. Artıq bu olimpiadaya hazırlıqlar başlayıb.

# Futzal üzrə keçirilən II respublika birinciliyinin qrup mərhələsi başa çatıb



Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal üzrə II respublika birinciliyinin qrup mərhələsinə yekun vurulub. Qrup mərhələsində ümumilikdə 31 ali və orta ixtisas təhsili müəssisəsinin komandaları iştirak edib. Komandalardan 21-i Bakı şəhərini, 10-u isə regionları təmsil edib.

6 qrupa bölünərək mübarizə aparan komandaların oyunları Milli olimpiya komandalarının təlim-məşq bazasının, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Şirvan Dövlət İqtisad və Humanitar Kollecinin, Göygöl rayon Olimpiya İdman Kompleksinin idman zallarında keçirilib. Gərgin mübarizə şəraitində keçən yarışda hər qrup üzrə birinci və ikinci yerləri tutan 10 ali və iki orta ixtisas təhsili müəssisəsinin komandaları pley-off mərhələsinə vəsiqə qazanıb. Qrup mərhələsi üzrə 51 oyun keçirilib. Növbəti mərhələ üzrə oyunlar mayın 5-də start götürəcək.

Yarışda I, II və III yerləri tutan komandalar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. Bundan başqa təsis edilmiş 5 nominasiya üzrə seçiləcək tələbə futzalçılar da xüsusi mükafatlarla təltif olunacaq.

Birinciliyin keçirilməsində əsas məqsəd ali və orta ixtisas təhsili müəssisələri tələbələri arasında futzal idman növünün kütləviliyinin təmin edilməsi, beynəlxalq yarışlarda iştirak etmək üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsi, ölkənin yeniyetmələrdən, gənclərdən ibarət yığma komandalarına perspektivli tələbə futzalçıların seçilməsinin təmin edilməsi və tələbələr arasında dostluq əlaqələrinin yaradılmasından ibarətdir.

Birincilik Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı, Təhsil Nazirliyi və Azərbaycan Futzal Federasiyasının dəstəyi ilə keçirilir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ | AZƏRBAYCAN MÜƏLLİMİ | Bank of Baku

**"Azərbaycan müəllimi" qəzeti və Bank of Baku ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlər üçün "Azərbaycan Xalq Cümhuriyyəti və təhsil" mövzusunda yazı müsabiqəsi**

**ELAN EDİR**

Yazılar 20 aprel 2018-ci il tarixdən 20 may 2018-ci il tarixinədək muallim@edu.gov.az elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və Cümhuriyyət dövrü tədqiqatçılarından ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin pul və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

**MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ:**

- İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidirlər.
- Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər.
- Yazının həcmi 8-10 min işarədən ibarət olmalıdır.
- Yazının əvvəlində müsabiqə üçün hazırlandığı qeyd edilməlidir.

Əlaqə üçün: (012) 538-51-41

**TƏŞKİLAT KOMİTƏSİ**

# "İrəvandan başlanan yol"




## ADAU-nun professoru Eynəddin Məmmədovun bu adda kitabı işıq üzü görüb

**Sahib İBRAHİMLİ,**
*filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi*

Qərbi Azərbaycandan bəhs edən kitablar, qəzet və jurnal məqalələri, habelə digər çap materialları bu qədim yurd yerlərimizlə bağlı qan yaddaşımızı daha da möhkəmləndirir, qəlbimizdə düşmənə nifrət və qəzəb hisslərini çoşdurur, bizi torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə ruhlandırır. Azərbaycan Dövlət Aqrar Universitetinin professoru Eynəddin Məmmədovun təzəcə işıq üzü görmüş *"İrəvandan başlanan yol"* (Bakı, 2018) adlı kitabı bu baxımdan diqqəti cəlb edir. Azərbaycanın bu doğma və ulu bölgəsində yaşayan soydaşlarımızın həyat və məişətini, tarixi faciələrini müəllif özünün mənsub olduğu mötəbər və nüfuzlu bir nəslin, bir şəcərənin timsalında qələmə alıb. Şəxsi xatirə, zəngin və qiymətli arxiv sənədləri, real tarixi faktlar əsasında yazılması kitabın ümumi dəyərini və ona oxucu marağını daha da artırır.

E.Məmmədov mahir bir araşdırmaçı kimi İrəvanın uzaq tarixi keçmişinə və həmin tarixin ən müxtəlif məqamlarına baş vuraraq bir çox həqiqətləri üzə çıxarır ki, bu da saxtakar və yalançı erməni tarixçilərinin iftira və uydurmalarına tutarlı cavabdır. O, İrəvanın əski türk torpaqları, Azərbaycanın ayrılmaz bir parçası olduğunu, lakin tarixin sonrakı dönəmlərində aparılan işğalçılıq siyasəti nəticəsində yerli əhalinin sıxışdırılaraq öz dədə-baba yurdlarından çıxarıldığını əsl vətəndaş-alim yanğısı ilə qələmə alıb. Kitaba ön söz yazmış tanınmış jurnalist Əziz Ələkbərli haqlı olaraq qeyd edir: "Qarşımızdakı kitab, ilk baxışda, bir şəxsin, bir nəslin, bir tayfanın-Şeyx Məhəmmədbağır (Qazızadə) İrəvani və onun törəmələrinin tarixindən bəhs etsə də, əslində, onun səhifələrində Azərbaycanın qədim dövlətçilik ənənələrinə malik, təhsil, elm və mədəniyyət ocaqları olan Qərbi Azərbaycanın 3 min illik tarixindən söz açılır".

Bütün dövrlərdə özünün xeyirxah əməlləri, yurdsevərliyi, ictimai-siyasi fəallığı ilə İrəvanın tarixində silinməz iz qoymuş, onun adını daim uca tutmuş ayrı-ayrı nəsillər və şəxsiyyətlər yetişib. Bu gün onlardan bəhs edilməsi, keçdikləri şərəfli yolun araşdırılması olduqca vacibdir. Məsələn, XVIII əsrdə yaşamış Fazil İrəvani kimdir? Oxucuların əksəriyyəti yəqin ki, bu adla ilk dəfə məhz bu kitabda tanış olacaq. E.Məmmədovun qeydlərindən öyrənirik ki, F.İrəvani təkcə yaşadığı İrəvan mahalında deyil, Şərqin dini ictimaiyyəti arasında da böyük hörmət və nüfuz sahibi olub.

İrəvan bölgəsində özünün nəcib və xeyirxah əməlləri ilə böyük nüfuz və ad-san qazananlardan biri olaraq Şeyx Molla Məhəmmədbağır Qazızadənin də adı kitabda yer alıb. Dövrün bir sıra elmlərinə yiyələnən Qazızadənin adı bölgədə yeni üsullu məktəblərin açılması istiqamətindəki təşəbbüsləri ilə, öz evində rus-tatar qızlar məktəbi açaraq milli maarifçilik tariximizin mühüm bir hadisəsinə imza atan şəxsiyyət kimi anılır. E.Məmmədovun M.Qazızadə ilə bağlı aşağıdakı qeydləri qəlbimizi qürur hissi ilə doldurur: "Dövrünün qabaqcıl maarifçi, elm və din xadimi idi. Şərq və Avropa mədəniyyətinə dərindən bələd olan alimin adı bütün Qafqazda hörmətlə çəkilirdi".

Kitab müəllifi yeri gəldikcə XIX əsrdə İrəvanda mədəniyyət və maarifçilik sahəsində baş vermiş yeniləşmə prosesi ilə əlaqədar maraqlı fakt və hadisələrə diqqət çəkir. E.Məmmədov M.Qazızadə ilə yanaşı, bu dövrdə xalqın savadlanması, bəsirət gözünün açılması, elmi yeniliklərlə tanış olması üçün öz səylərini əsirgəməyən tərəqqipərvər azərbaycanlı ziyalıların adlarını çəkir, onların çətin və mürəkkəb bir tarixi şəraitdə bölgənin inkişafı naminə həyata keçirdikləri xeyirxahlıq missiyasını layiqincə dəyərləndirir. İrəvan maarifçiliyi tarixində çox böyük rol oynamış Əliqulu xan İrəvanski, Mirzə Qədim İrəvani, Abbas ağa Fərəcov, Mehdi Kazımov, Mirzə Həsən Rüşdiyyə Təbrizi, Mirzə Məhəmməd Şeyxzadə və başqa bu kimi yüksək əqidə və məslək sahiblərinin adları və mütərəqqi əməlləri kitabda xüsusi qeyd olunur, belə insanların ömür yolu gənclərə əsl örnək kimi təqdim edilir. Sonradan Məmmədovlar soyadı daşıyan Əlinağı Mirzə Məhəmmədbağıroğlunun və həmin nəslin başqa nümayəndələrinin vətənpərvərliyi, milli dəyərlərə sadiqliyi, istedad və bacarığı da bu kitabda xüsusi yer alıb. Qeyd olunur ki, bu nəslin davamçılarından bir neçəsi Rusiyanın və Avropanın ən nüfuzlu ali məktəblərində təhsil almışlar. Onların arasında Stalin repressiyasının qurbanları da olub. Bu sülalədən dövlət xadimləri, hərbçi, dünya şöhrətli alim və şair, müdrik, xeyirxah ağsaqqallar da çıxıb.

E.Məmmədov bizim nə vaxtsa doğma torpaqlarımıza qayıdacağımıza daxili bir inam yaradır. Memuar ədəbiyyatının gözəl bir nümunəsi olan bu kitab həm də elmi-tədqiqat səciyyəli məqamları ilə mühüm maraq doğurur.

Onu da qeyd etmək lazımdır ki, kitabda istifadə olunan əlyazmaları və sənədlər Sankt-Peterburq, Tiflis və Təbriz arxivlərindən götürülüb.

Professor Eynəddin Məmmədovun bu kitabı əzəli yurd yerlərimizdən biri olan İrəvan bölgəsinin, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixini öyrənmək istəyənlər üçün dəyərli bir mənbədir.